Günəş Şərqdən doğur!

❒ № 67 (5348), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 17 aprel 2021-ci il (şənbə)



## Azərbaycana 100 min doza "Sputnik V" vaksini gətiriləcək

(Səh.2)

### Günün içindən...



### Prezident və birinci xanım ağac əkiblər

Bakının Pirşağı qəsəbəsində yenidənqurma və təmir-bərpa işlərinin təməli qoyulub

**Aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidənqurma tədbirlərinə start verilib və təmir-bərpa işlərinin təməli qoyulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

(səh.2)

### Türk Şurasının nüfuzu artır



Qazaxıstan və Özbəkistan da bu təşkilatın güclənməsinin tərəfdarıdır

(səh.5)

# Azərbaycan Avropa İttifaqına etirazını bildirdi



## Avropa İttifaqının ölkəmizdəki nümayəndəsi XİN-ə dəvət edilib

Aprelin 16-da Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəsi, səfir Kestudis Yankauskas Xarici İşlər Nazirliyinə dəvət edilib.

(səh.2)



# 44 günün qənimətləri...

Bütün Bakı əhli "müharibəyə" baxmağa gedir

(səh.9)

### "Azərbaycanla münasibətlərin inkişafına ehtiyac duyuruq"

Armen Sarkisyan: "Ermənistan nəqliyyat yollarının açılmasında maraqlıdır"

(səh.2)

### Münaqişə tərəfi həm də Rusiyadır

Zaxarovanın "bərbəzəkli" sözləri reallığı dəyişə bilməz

(səh.3)

### "Pis adam idimsə, 30 il mənimlə dostluq etməzdi"

Şahbaz Quliyev: "Sözü varsa gəlsin üzümə desin, yüz qram içib, arxamca danışmasın"

(səh.7)

### Sağalanların sayı yoluxanları ötdü

Son sutkada 32 nəfər koronavirusdan vəfat edib

(səh.8)

# Prezident və birinci xanım ağac əkiblər



## Bakının Pirşağı qəsəbəsində yenidənqurma və təmir-bərpa işlərinin təməli qoyulub

Aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidənqurma tədbirlərinə start verilib və təmir-bərpa işlərinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin göstərişinə əsasən, 2019-cu ildən Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində xüsusi abadlaşdırma işlərinə başlanılıb. Balaxanı qəsəbəsinin timsalında uğurlu təcrübənin şahidi olmuşuq. Bibiheybət, Novxanı, Əmircan, Ramana qəsəbələrində də bu proses davam edir.

Artıq Pirşağı da mahiyyətcə qədim, formaca yeni simasını qazanacaq. Həyata keçirilən tədbirlərin əsas məqsədi buradakı insanların daha yaxşı şəraitdə yaşaması, özlərini daha rahat hiss etmələridir. Pirşağı tarixən iqlim terapiyası üçün əlverişli zona hesab olunub. Yekunda ekoloji vəziyyətin də yaxşılaşdırılması hədəf kimi qarşıya qoyulub.

Qəsəbədə abadlıq işləri həm mövcud binalar üzərində, həm də açıq məkanlarda aparılacaq. Mərkəzi hissədə məscidin qarşısında Şərq bağçılıq ənənələrinə uyğun parkın salınması nəzərdə tutulur. Ənənəvi "Çar-bağ" (Cahar-bağ) prinsipi ilə salınacaq parkın mərkəzində su hövzəsi yerləşdirilib və ondan dörd istiqamətdə yollar ayrılır.

Pirşağıda abadlaşdırma işləri məşğulluğun təminatına da müsbət təsir göstərir. Prosesdə iştirak edənlərin böyük əksəriyyəti məhz yerli sakinlərdən ibarətdir. Yeni siması ilə post-pandemiya dövründə cəlbedici turizm məkanlarından birinə çevrilməyi hədəfləyən Pirşağıda tələbata uyğun məhsulların istehsalı da istisna edilmir.

**Prezident İlham Əliyev:** Burada həmişə yaxşı şanı üzümü var idi - ağ şanı, qara şanı.

**"Bakı Abadlıq Xidməti" MMC-nin müdiri Bünyad Qasımov:** 50 min ting əkmişik, davam etdiririk.

**Prezident İlham Əliyev:** Həmin sortdan?

**Bünyad Qasımov:** Hazırda dörd sort əkilib, ağ şanı da var, qara şanı da.

**Prezident İlham Əliyev:** Çox şirin idi, bal kimi.

Abadlaşdırma zamanı tarixi abidələrin bərpası və aşkarlanması əsas məqsədlərdəndir. Pirşağıda bu mənada bərpa-konservasiya olunacaq abidələrdən biri Hacı Şahverdi hamamıdır. Bu hamam XIX əsrdə Pirşağı qəsəbəsinin sakini Hacı Şahverdi tərəfindən inşa olunub. Yerli əhali arasında o, "Qum hamamı" kimi tanıyır.

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hacı Şahverdi hamamı ilə tanış olublar.*

Dövlətimizin başçısı və birinci xanım qəsəbədə ağac əkiblər.



Prezident İlham Əliyev Pirşağı qəsəbəsində yenidənqurma və təmir-bərpa işlərinin təməlini qoyub.

Bu il Mərdəkan, Buzovna və Maştağa qəsəbələrinin də bu prosesə qoşulacağı gözlənilir.

Sonra dövlətimizin başçısı və xanımı qəsəbə ilə tanış olublar.

Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində həyata keçirilən bu layihələr həm tarixilik, həm də mövcud reallıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, yerli memarlıq məktəbinin üslubları və özünəməxsus rəng çaları yenidən canlandırılır və gələcək nəsillərə ötürülür. Post-müharibə və mövcud pandemiya reallığından baxdıqda isə iqtisadi gücümüzün böyük dərəcədə artdığı, hətta qlobal çağırışlara rəğmən, heç bir sosial layihənin ixtisar olunmadığı aydın görünür.

Pirşağı qəsəbəsində yenidənqurma işlərinin layihəsindən danışan Bünyad Qasımov bildirdi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə müsabiqə elan etdik. Bu qəsəbədə yenidənqurma tədbirlərinin konseptual layihəsini hazırlamaq üçün 20-dən artıq iş topladıq. Sözsüz ki, qəsəbənin öz xüsusiyyətləri, buranın ab-havasını, Abşeronun mədəniyyətini və digər amilləri nəzərə alacağıq.

## Ərdoğan: "Xarici işlər nazirimiz Dendiasa həddini bildirdi"



**Xarici işlər nazirimiz Mövlud Çavuşoğlu yunan həmkarı Nikos Dendiasa həddini bildirdi.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan cümə namazından sonra jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Türkiyə ilə Yunanıstan arasındakı münasibətlərin həllinə başqa ölkələrin müdaxiləsi arzuolunan deyil.

"Yunanıstanda 150 min soydaşımıza lazımi diqqət göstərilmir", - deyə o vurğulayıb.

Ərdoğan Yunanıstanı Lozanna müqaviləsinin şərtlərini pozmaqda ittiham edib.

## Azərbaycana 100 min doza "Sputnik V" vaksini gətiriləcək



**Aprel-may aylarında Rusiya Azərbaycana 100 min dozadan çox "Sputnik V" koronavirus peyvəndi tədarük edəcək.**

Bu barədə Rusiya Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko Moskvada Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşdə bildirib. O qeyd edib ki, kütləvi peyvəndlənmə "COVID-19" pandemiyasını dayandırmaq və vətəndaşların həyatını və sağlamlığını qorumaq üçün yeganə real yoldur.

*Sədr Azərbaycana peyvənd tədarükündən əlavə, vaksinin Azərbaycanda istehsalı məsələsinə baxıldığını da qeyd edib.*

"Bu, təkcə əhalinin peyvəndlənməsini deyil, bəlkə də ixracını da təşkil etməyə imkan verəcək",- deyə V. Matviyenko qeyd edib.

## 654 nəfər Azərbaycandan deportasiya olunub

**Ötən il ölkədə olma və yaşama qaydalarını pozan 6 377 əcnəbi müəyyənləşdirərək inzibati məsuliyyətə cəlb edilib.**

Bu, Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2020-ci il üzrə illik məlumatında əksini tapıb.

*Qeyd edilib ki, 654 nəfər ölkədən deportasiya olunub.*

## "Azərbaycanla münasibətlərin inkişafına ehtiyac duyuruq"

### Armen Sarkisyan: "Ermənistan nəqliyyat yollarının açılmasında maraqlıdır"



**Ermənistan həm Gürcüstanla, həm də Azərbaycanla siyasi, diplomatik, iqtisadi münasibətlərin inkişafına ehtiyac duyur.**

Trend-in məlumatına görə, bunu Ermənistan prezidenti Armen Sarkisyan Gürcüstana səfəri zamanı deyib.

O bildirib ki, hazırda dalanda olan Ermənistan nəqliyyat yollarının açılmasında maraqlıdır:

"Amma bəzi çətinliklər mövcuddur. Yolların açılmasından əvvəl çoxlu addımlar atılmalıdır. Amma Ermənistanın həm Gürcüstanla, həm də Azərbaycanla daha fəal siyasi, diplomatik, iqtisadi münasibətlərin inkişafına ehtiyacı olduğu faktdır".

# Azərbaycan Avropa İttifaqına etirazını bildirdi

## Avropa İttifaqının ölkəmizdəki nümayəndəsi XİN-ə dəvət edilib

**Aprelin 16-da Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəsi, səfir Kestudis Yankauskas Xarici İşlər Nazirliyinə dəvət edilib.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, görüşdə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın bu il aprelin 14-də Ermənistana səfəri çərçivəsində özünü "xarici işlər naziri" kimi qələmə verən, qanunsuz rejimin nümayəndəsi David Babayan ilə görüşməsi ilə bağlı K.Yankauskasa etiraz bildirilib.



Aİ nümayəndəsi Toivo Klaarın münaqişə sonrası bölgədə yaranmış yeni reallıqları nəzərə almayan, kövrək sülhə təhdid doğuran və qarşı tərəfə əsassız gözləntilər verən addımlar atmasının yolverilməz olduğu vurğulanıb. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin bu kimi fəaliyyətinin Azərbaycan tərəfinin ona olan etimadını heçə endirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

# Münaqişə tərəfi həm də Rusiyadır

## Zaxarovanın "bərbəzəkli" sözləri reallığı dəyişə bilməz



**”Həm Azərbaycan, həm də Ermənistan sadə olmayan qarşılıqlı etibarlı güvənin qurulması yolunun başlanğıcındadırlar”.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova deyib. XİN rəsmisi vurğulayıb ki, Rusiya tərəflər arasındakı qarşılıqlı etimad prosesinə yardım etməyə hazırdır: ”Əlbəttə, qarşıda az olmayan çətinlikləri, maneələri aşmaq var. Cənubi Qafqazın sabitliyi, dayanıqlı iqtisadi inkişafı Rusiyanın bu regiondan olan bütün tərəfdaşlarının marağına cavab verir. Ümid edirik ki, praktiki işlərdə tərəflər ayırıcı xətlərə deyil, münasibətlərin normallaşmasına və inam atmosferinin yaradılmasına istiqamətlənən addımlara səy göstərəcəklər”.

**Zaxarovanın açıqlamasını ”Şərq”ə dəyərləndirən politoloq Əli Oruclu bildirib ki, münaqişənin yaranma səbəbkarı və bu gün də tam həll olunmasına mane olan ölkə Rusiyadır.** Siyasi şərhçinin sözlərinə görə, əgər Bakı və İrəvan Kremlin bəyan etdiyi kimi sülh şəraitində olsa, bir-biriylə normal əməkdaşlıq etsə, o zaman Rusiya ortadan çıxmış olacaq: ”Bu isə Moskvanın Cənubi Qafqazdakı rolunun sıfıra enməsi deməkdir. Zaxarova ”bərbəzəkli”, guya, sülhpərvər imicdə ”tövsiyələr” verməklə mövcud reallığı dəyişdirə bilməz. Əslində münaqişə tərəfi həm də Rusiyadır. Təbii ki, biz regionda sülh və əmin-amanlığın bərpasını istəyirik. Rəsmi Bakı bölgədə normal əməkdaşlıq mühitinin formalaşması üçün əlindən gələni edir. Ancaq buna nail olmaq heç də asan məsələ deyil və qarşımızda ermənilərlə yanaşı, ruslar da var. Düzdür, ermənilərin xislətində türkə qarşı bitib-tükənməyən düşmənçilik var və nə vaxtsa yenidən üzə çıxa bilər. Amma Ermənistan görsə ki, onların axrasında təhrikedici güc, Moskva kimi mərkəzlər yoxdur, o halda məcburi qaydada Azərbaycanla normal əməkdaşlığa razılıq verəcəklər”.

“Əgər Bakı və İrəvan Kremlin bəyan etdiyi kimi sülh şəraitində olsa, o zaman Rusiya ortadan çıxmış olacaq”

**İsmayıl Qocayev**

# Artilleriya müharibənin “Allahıdır"



**Şair Ramaldanov:**
“Raket və artilleriya hazırlığında məhz müharibə zamanı qazandığımız təcrübədən real şəkildə istifadə olunacaq”

**Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci ilin döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunda raket və artilleriya qoşunları bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilir.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, şəxsi heyətin peşəkarlığının artırılması məqsədilə keçirilən taktiki təlimlərdə müxtəlif çaplı toplardan və digər raket-artilleriya qurğularından nümunəvi döyüş atışları icra olunub. Real döyüş şəraitinə uyğun keçirilən təlimlərdə təyin olunan şərti hədəflər qoşunlarımızın dəqiq atəşi ilə məhv edilib.

Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla bölmələrin fasiləsiz idarə edilməsi, onların digər qoşun növləri ilə qarşılıqlı əlaqədə döyüş fəaliyyətinin təşkili üzrə praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəldilən təlimlər davam edir.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov ”Şərq”ə bildirib ki, hər il olduğu kimi bu il də Azərbaycan Ordusunun döyüş hazırlığı planında bütün ixtisaslar, o cümlədən raket-artilleriya ixtisası üzrə xüsusi taktiki təlimlər keçirilir:** ”Bu təlimdə iştirak edən heyət müharibədə döyüş təcrübəsi qazanıb. Ona görə də belə təlimlər çox maraqlıdır.

Fikrimcə, raket və artilleriya hazırlığında məhz müharibə zamanı qazandığımız təcrübədən real şəkildə istifadə olunacaq. Artıq heyətin peşəkarlığının artırılması kimi məqsədlər əsas hədəflərdən biridir. Raket və artilleriya qurğularından atəş müəyyən taktiki şəraitdə həyata keçirilir. Bu şəraitdə digər qoşunlarla qarşıya qoyulan ümumi tapşırığı yerinə yetirmək üçün raket və artilleriyanın dəstəyi ilə hədəflər müəyyənləşdirilir. Təbii ki, təlim fonunda real döyüş şəraitində hədəflərin məhv edilməsi üçün tapşırıqlar yerinə yetirilir. Atışların keçirilməsi və qiymətləndirilməsi xüsusi cədvəl üzrə aparılır”.

**Ş.Ramaldanov vurğulayıb ki, raket və artilleriya təlimlərində hazırlıq mərhələsindən tutmuş, hədəfi məhv etmə mərhələsi olur:**

”Əlbəttə, belə təlimlərdə Azərbaycanın raket və artilleriya qurğularını idarə edən heyətin peşəkarlığının artırılması, həm də bacarığını real şəraitdə yerinə yetirilməsi yoxlanılır. Sözügedən hazırlıqlar Azərbaycan Ordusunun peşəkarlığının artırılmasına xidmət edəcək. Belə bir deyim var: Artilleriya müharibənin ”Allahıdır”. Ona görə də bu təlimlərdə qarşıya qoyulan tapşırıq və məqsədlər tam həllini tapacaq”.

**Yeganə Bayramova**



# Türkiyə ilk addımı atdı

## Ermənistanın müharibə cinayətləri rəsmən qəbul edildi

Türkiyə parlamentində Ermənistanın müharibə cinayətləri ilə bağlı hesabat qəbul edilib. Parlamentin İnsan Hüquqlarının Təhlili Komissiyasının sədri Hakan Çavuşoğlu Ermənistanın Qarabağdakı müharibədə ön plana çıxan fəaliyyətlərinin mülki insanları və mülki yaşayış yerlərini hədəf aldığını bildirib.

Sədr qeyd edib ki, bu fəaliyyətlərin hər biri müharibə cinayətləridir. Çavuşoğlu münaqişə zonasından kənarda qalan Azərbaycan mülki yaşayış yerlərinə edilən hücumlarla bağlı beynəlxalq hüquq-müdafiə təşkilat və qurumlarını Cenevrə sazişi çərçivəsində hərəkətə keçməyə çağırmaq üçün alt komissiya qurduqlarını söyləyib. Vurğulayıb ki, Bakı, Gəncə, Tərtər və Bərdə şəhərlərində Ermənistan ordusunun hücumlarında şəhid olan mülki vətəndaşların yaxınları ilə görüşlər təşkil edilib və rəsmi şəxslərdən müvafiq məlumatlar alınıb: ”İkinci Qarabağ müharibəsi olaraq adlandırılan müharibə əsnasında Ermənistan ordusu beynəlxalq humanitar hüququ sistematik olaraq tapdayıb. Kasetli bomba və fosfor mərmiləri kimi qadağan olunmuş silahlar istifadə edib. Qəsdən mülki əhalinin yaşadığı ərazilərə, qəbiristanlıqlara, məktəblərə, tibb müəssisələrinə, elektrik, qaz, su və boru xətləri kimi iqtisadi infrastruktur obyektlərinə, təbii və mədəni müəssisələrə hücum edib”.

“Yaxşı olardı ki, digər türkdilli dövlətlər də bu məsələdə fəal olsunlar. Bu kimi hadisələrdən heç kim sığortalanmayıb”

**Tanınmış jurnalist, siyasi şərhçi Anar İmanov ”Şərq”ə vurğulayıb ki, qardaş ölkə bir daha Azərbaycana çox yaxın olduğunu, bizi sona qədər dəstəklədiyini nümayiş etdirdi:** ”Digər ölkələr üçün Türkiyənin sərgilədiyi fəaliyyətin presedent olub-olmayacağı məlum deyil, amma bu cür təşəbbüslər nə qədər çox olarsa, bir o qədər yaxşıdır. XXI əsrdə Ermənistanın vəhşi, faşist mövqeyi, mülki vətəndaşlara qarşı çirkin əməlləri dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır. Bu məsələ bütün sivil, demokratik ölkələrdə qaldırılmalıdır. İnsanlar dünyanın hər nöqtəsində bilməlidir ki, Ermənistan döyüşdən uzaq bölgələrdə yaşayan mülki insanları öldürməyi hədəfləyirdi. Yaxşı olardı ki, digər türkdilli dövlətlər də bu məsələdə fəal olsunlar. Bu kimi hadisələrdən heç kim sığortalanmayıb. Türk dünyası eyni mövqedən çıxış etməlidir”. A.İmanov vurğulayıb ki, erməni faşizmi bütün türkdilli dövlətlərdə dərsliklərə salınmalıdır: ”Erməni faşistləri tərəfindən törədilən terror aktları və soyqırımlar bütün dünya tərəfindən qınaq obyektinə çevrilməlidir. Bu problem gələcək nəsillərə qalmamalıdır. Erməni faşizmi bütün dünyada qınanmalı və yox edilməlidir. Bunun üçün birgə, müştərək fəaliyyət gərəkdir ki, onu da Türkiyə artıq başladıb”.

**İsmayıl Qocayev**

# Onun hazırda dərdi Qarabağ dərdi deyil

## Baş nazir seçki öncəsi səs faizini çoxaltmaq istəyir



### Paşinyanın mesajlarının hamısı daxili auditoriyaya hesablanıb

Ermənistan Baş naziri Nikol Paşinyan Ermənistan parlamentində çıxışı zamanı növbəti dəfə sərsəm açıqlamalar səsləndirib. O, çıxışında müharibədən sonrakı vəziyyəti dəyərləndirib. Baş nazir iddia edib ki, Ermənistan Qarabağ ərazisinin "işğaldan" tam azad edilməsi və sərhədlərin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti daxilində bərpa olunması məsələsini yenidən qaldırmalıdır.

Onun sözlərinə görə, söhbət Hadrut rayonu və Şuşanın Xankəndinin nəzarəti altına alınmasından gedir. Lakin bu məsələ hərbi yolla deyil, siyasi yolla həll olunmalıdır. Paşinyan Azərbaycanda Hərbi Qənimətlər Parkının açılışına işarə edərək deyib ki, Ermənistan bütün tribunalarda diqqəti Azərbaycandakı muzeyə yönəltməlidir. Azərbaycan Xarici İşlər Nazirliyi Nikol Paşinyanın absurd xəyallarına qısa cavab verib. Nazirlikdən vurğulanıb ki, Paşinyan növbəti sərsəmləmələri ilə diqqət çəkməyə çalışıb: "Nikol Paşinyanın söylədiyi heç bir fikir şərh olunmağa belə layiq deyil". Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, "bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır" və bundan sonra heç bir "status" olmayacaq.

**Erməni baş nazirin açıqlamasını "Şərq"ə təhlil edən politoloq Əhəd Məmmədli bildirib ki, Paşinyan növbədənkənar seçki öncəsi bu cür açıqlamalar verməklə səs faizini çoxaltmaq istəyir.** Analitikin sözlərinə görə, baş nazirin məqsədi iddia etdiyi kimi Qarabağ deyil: "Paşinyan mümkün qədər özünü sığortalamağa çalışır. Revanşist düşüncədə olanları da öz cərgəsinə çəkmək üçün ara-sıra bu cür müharibə ritorikalı mesajlar verir. Öz ağlı ilə siyasi həmlələr edir və hələ də Azərbaycana düşmən olduğunu göstərir. Təbii ki, bu cür mesajların hamısı birbaşa daxili auditoriyaya hesablanıb. Çünki baş nazir ölkədən kənarda bu tipli bəyanatlar səsləndirmir. Şübhəsiz, Hadrut və Şuşanın hansısa "sülh" yolu ilə Azərbaycandan geri alınacağını iddia etmək utopiyadır. Paşinyan bir yandan deyir ki, Azərbaycan-Ermənistan sərhədləri 1975-ci ildəki dövrə qaytarılsın. Digər yandan isə Qarabağı almaqdan dəm vurur. Seçki öncəsi dediklərini ciddiyə almaq lazım deyil. Ermənilər ancaq müharibə yolu ilə buna cəhd edə bilərlər. Onu etməyə də cəsarətləri çatmaz. Ermənistan istəməsə belə əvvəl-axır rəsmi Bakının yaratdığı reallıqları qəbul edəcəklər. Əgər bu cür mövzuların gündəmə gəlməyini ümumiyyətlə istəmiriksə, qısa zamanda Qarabağın dağlıq hissəsində də hərbi-siyasi yurisdiksiyamızı bərpa etməliyik".

**İsmayıl Qocayev**



# Türk Şurasının nüfuzu artır

## Qazaxıstan və Özbəkistan da bu təşkilatın güclənməsinin tərəfdarıdır

**"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında müxtəlif mövzularla yanaşı Türk Şurası barədə vacib açıqlamalar səsləndirdi".**

Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzi, politoloq Elxan Şahinoğlu deyib.

O, Türkiyə dövlət başçısının toxunduğu vacib məqamları "Şərq"ə açıqladı: "Birincisi, Ərdoğan dedi ki, sıraları genişlənən Türk Şurasını beynəlxalq təşkilat halına gətirmək vaxtı gəlib çatıb. İkincisi, o, Türk Şurasının nəzdindəki bir çox strukturlarla görülən işlərin daha güclü bir strukturlaşmaya ehtiyac olduğunu ortaya qoydu. Üçüncüsü isə bu ilin noyabr ayında Türkiyənin ev sahibliyi ilə keçirilən Türk Şurasının 8-ci Fövqəladə iclasında İstanbulda prestijli bir tarixi binanın şuranın və gələcəkdə qurulacaq təşkilatın idarə edilməsi üçün hazırlandığını vurğuladı".

**E.Şahinoğlu, həmçinin Türk Şurasının gələcək perspektivlərindən söz açdı:** "Beləliklə, Ərdoğan Türk Şurasının funksiyasını artırmaq niyyətindədir. Azərbaycan da bunu istəyir. Ən əsası keçmiş illərdən fərqli olaraq, Qazaxıstan və Özbəkistan da Türk Şurasının güclənməsinin tərəfdarıdır. Digər tərəfdən, Mərkəzi Asiya ölkələri görürlər ki, təşkilata Macarıstan və Cənubi Koreya kimi ölkələrin marağı olduğu halda inteqrasiya prosesindən kənarda qalmaq olmaz. Qazaxıstan və Özbəkistan üçün Rusiyanın hakim olduğu Avrasiya İqtisadi Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındansa Türk Şurası daha faydalıdır".

**Kənan**

# Böyük köçün qarşısını ala bilər

## Zəngəzur dəhlizi Ermənistanın nicatı üçün böyük şansdır

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri və ATƏT-in Minsk qrupunun sabiq həmsədri Metyu Brayza hesab edir ki, Zəngəzur nəqliyyat dəhlizi Şimal-Cənub layihəsinin bir hissəsi ola bilər. Bu sözləri amerikalı diplomat Yutubda video sorğu zamanı qeyd edib. Onun sözlərinə əsasən, Zəngəzur dəhlizinin reallaşması mühüm iqtisadi və geostrateji tərkibə malikdir.

Metyu Brayza əmindir ki, Zəngəzur dəhlizi Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyənin nəqliyyat infrastrukturlarını özündə birləşdirəcək, irimiqyaslı regional layihələrə sərmayə yatırmaq üçün yeni imkanlar açacaq. "Dəhliz sənaye zonaları arasında əməkdaşlığın inkişafı baxımından fəal şəkildə istifadə oluna bilər. Zəngəzur dəhlizinin reallaşmasına İrəvanın Bakı və Ankara ilə iqtisadi əlaqələri və hərtərəfli əməkdaşlığını qurmaq istəməyən erməni "revanşistlər" etiraz edəcək", - deyə o vurğulayıb.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"ə bölüşən iqtisadçı-ekspert Rauf Qarayev deyib ki, Zəngəzur dəhlizinin reallaşması mühüm iqtisadi və geostrateji əhəmiyyətə malikdir. Ekspert qeyd edib ki, Zəngəzur dəhlizi türk dünyasının birləşməsi deməkdir:** "Zəngəzur tarixi Azərbaycan torpağıdır. O, 1920-ci ildə rus bolşeviklərinin əli ilə Azərbaycandan ayrılıb. Bəllidir ki, rus imperiyasında hər zaman türk qorxusu olub. Bu baxımdan rus imperialistləri daimi inkişafa mane olmaq üçün erməniləri buraya köçürüb və tarixi torpaqlarımızda onlara şərait qurublar. Nəticədə Zəngəzurun itməsi Naxçıvanı blokada vəziyyətinə salıb. Cənab Ali Baş Komandan dəfələrlə qeyd edib ki, Zəngəzurun Ermənistana verilməsi türk dünyası arasında coğrafi bağlantının pozulmasını özündə əks etdirir. Əgər ədalətsizlik törədilməsəydi, bu gün türk dünyası vahid məkan kimi olacaqdı. 44 günlük müharibədən sonra Zəngəzur dəhlizinin açılması ilk növbədə türk dünyasının birləşməsi rolunu oynayacaq. Bu həm də Ermənistan üçün əhəmiyyətlidir. Ermənistanın hazırda müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Azərbaycan üzərindən bu əlaqə yarana bilər. İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsi ilə də bunu bərpa edə bilər".



*R.Qarayev qeyd edib ki, bu dəhliz vasitəsilə tək avtomobil yolu deyil, paralel olaraq Naxçıvanla birləşən dəmir yolu xəttinin bərpası, kommunikasiyaların, boru və qaz kəmərlərinin açılması üçün də mühüm əhəmiyyətə malikdir:* "Kommunikasiyaların genişlənməsi Naxçıvandan Türkiyəyə, oradan da Aralıq dənizi vasitəsilə digər qərb dövlətlərinə çıxmaq imkanı yaradacaq. Bu, türk dünyasının birləşməsi deməkdir. Zəngəzur dəhlizinin açılmasından ehtiyat edən ölkə Gürcüstandır. Əslində bu anlaşılandır. Çünki onlar düşünür ki, investisiya baxımdan layihələr oradan keçəcəksə, bu zaman Gürcüstan büdcəsinə bu az təsir edə bilər. Amma buna qarşı ən kəskin çıxan elə ermənilərin içində olan Koçaryanlar, Sarkisyanlar və sairlərdir ki, əlləri hər şeydən üzülüb. Onlar qeyd edirlər ki, Zəngəzur dəhlizinin açılması Ermənistanın bir dövlət kimi sonunu gətirə bilər. Əslində isə bu dəhlizin olmaması bir dövlət kimi onların sonu ola bilər. Çünki hamıya məlumdur ki, Ermənistanda iqtisadi cəhətdən dolanışığın ağır olması əhalini kütləvi sürətdə köç etməyə məcbur edir. Bu isə o deməkdir ki, erməni əhalisi Ermənistanda yaşamaq istəmir. Bu baxımdan da artıq onlara torpağın və dövlətin olması maraqlı deyil. Bu isə sonda həmin torpaqların Rusiyanın əlinə keçirilməsinə gətirib çıxaracaq. Bunu onların bəzi nümayəndələri də qeyd edir. Odur ki, revanşist qüvvələr reallıqla barışmalıdır. Əks halda dövlətçilik də əldən gedəcək. Metyu Brayzanın fikirləri ilə razıyam. Hesab edirəm ki, həqiqətən də Zəngəzur dəhlizi Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyənin nəqliyyat infrastrukturlarını özündə birləşdirəcək, irimiqyaslı regional layihələrə sərmayə yatırmaq üçün yeni imkanlar açacaq".

**Aynurə Pənahqızı**

# Savaş olarsa, üçüncü dünya müharibəsinə dönəcək



## Ona görə də ABŞ-Rusiya qarşıdurması hərbi müstəviyə keçməyəcək

Hazırda dünyanın diqqəti ABŞ-Rusiya münasibətlərindəki gərginliyə yönəlib. Vaşinqton bir müddət öncə Rusiyanın Ukrayna ilə sərhəddə gərginliyi artırmasına cavab olaraq Qara dənizə iki hərbi gəmisini göndərəcəyini açıqlamışdı. Rusiya buna cavab olaraq Qara dənizdə hərbi gəmilərinin sayını artırdı.

Sonra ABŞ Prezidenti Co Bayden rusiyalı həmkarı Vladimir Putinə zəng edərək üçüncü ölkələrin birində görüşməyi təklif etdi. Eyni gündə Amerikanın iki hərb gəmisi Qaradənizə boğazlardan daxil olmaq üçün Türkiyəyə müraciətini geri çəkdi və gözləmə mövqeyinə keçdi. Kreml hazırkı dövrdə prezidentlərin görüşünə ehtiyac olmadığını açıqladıqdan sonra Ağ Ev Rusiyaya qarşı növbəti sanksiyalarını bəyan etdi. Qəbul olunan qərara əsasən, 10 rus diplomatı Amerikadan qovulacaq. Əlavə olaraq, seçkilərə müdaxilə etdiyi üçün 32 Rusiya vətəndaşına da sanksiya tətbiq olunub. Yeni sanksiyalar Rusiya iqtisadiyyatı üçün əhəmiyyətli sahəyə - dövlət borclarına yönələcək.

**İki qütbün artan gərginliyini "Şərq"ə təhlil edən politoloq Turan Rzayev bildirib ki, iki böyük gücün qarşı-qarşıya gəlməsi ilk dəfə baş vermir.** Analitikin sözlərinə görə, ABŞ tərəfindən ruslara sanksiya tətbiqi dəfələrlə təkrarlanmış addımdır: "Amerikanın Ukrayna üzərindən Rusiyanın nəzarət dairəsi sayılan bölgəyə müdaxiləsi Kremli hər zaman qıcıqlandırıb. Moskva öz "arxa bağçasını" Amerikaya güzəştə getmək niyyətində olmayıb. ABŞ da təzyiq siyasətindən, hərbi güc göstərişindən vaz keçmək fikrində deyil. Amma tərəflərin qarşıdurmasının hərbi müstəviyə keçəcəyi inandırıcı görünmür. Hər iki ölkə nüvə silahına malik güclü dövlətlərdir və koalisiya yarada biləcək potensiala malikdirlər. Eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu səviyyədə iki ölkənin bir-birinə açıq savaş elan etməsi üçüncü dünya müharibəsi deməkdir. Ona görə Vaşinqton və Moskva sadəcə sanksiya və bəyanat müstəvisində əzələ nümayişi etdirirlər. Bundan sonra da ancaq sanksiya paketinin genişlənməsi aktual olacaq".

*Ekspert əlavə edib ki, Amerika iki gəmisini Ukraynaya yardım məqsədi ilə Qara dənizə göndərib:* "Ağ Ev Ukraynaya dəstəyini bu cür ifadə edir. Rusiya isə birbaşa müdaxilə etməsə də, konkret açıqlama verir ki, "əgər Donbassa kənar qüvvələrin hücumu baş verərsə, Kreml səssiz qalmayacaq". Rəsmi Kiyev hələlik Donbassa girmək niyyətinin olmadığını açıqlayıb. Ümumiyyətlə, hesab edirəm ki, Ukrayna Moskvanın qətiyyən müdaxilə etməməli olduğu məsələdir. Rus ordusunun Donbassa girməsi Ukraynanın məğlubiyyəti ilə başa çatsa belə, Kreml üçün "pir qələbəsi"ndən fərqsiz olacaq. SSRİ üçün Əfqanıstan nə idisə, Rusiya üçün də Ukrayna odur. Ukraynanın Türkiyədən əldə etdiyi modern hərbi texnikalar, xüsusən PUA-lar rus ordusuna ciddi zərbə vuracaq. Nəticədə şimal qonşumuzun iqtisadiyyatı daha da mürəkkəbləşəcək. Bu isə daxildəki subyektlərin müstəqillik arzularını artıracaq və ölkə parçalanmanın eşiyinə gələcək".

**İsmayıl Qocayev**

## MEDİA-da təyinatlar uğurludur

### Qulu Məhərrəmli: "Səriştəli kadrlardırlar, ümidlər böyükdür"



**Yeni yaradılmış Medianın İnkişafı Agentliyində tanınmış jurnalistlərə vəzifə verilib. Keçmiş ANS-çi Rüstəm Əbülfətoğluna qurumda Media subyektləri və jurnalistlərlə iş, media dəstək layihələri departamentinin direktoru vəzifəsi həvalə edilib.**

Tanınmış araşdırmaçı-jurnalist Natiq Məmmədli isə agentliyin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

Daha bir jurnalist, AzTV-nin əməkdaşı Səidə Şəfiyeva Kommunikasiya və informasiya texnologiyaları departamentinin Kommunikasiya şöbəsinin müdiri vəzifəsinə gətirilib.

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli qurumdakı sözügedən təyinatlarla bağlı "Şərq"ə danışdı:** "Hazırda Medianın İnkişafı Agentliyinin strukturu formalaşır. Yeni kadrların hər birini tanıyıram, peşəkarlıqlarına bələdəm. Kifayət qədər ciddi və səriştəli kadrlardırlar. Düzdür, təyinat müəyyən mənada məqsədi ifadə edir. Buna baxmayaraq, görüləcək işlər barədə proqnozlar verməyə çətinlik çəkirəm. İnanıram və arzu edirəm ki, mətbuatın inkişafına töhfə veriləcək, medianın cəmiyyətin səsi olması, söz və ifadə azadlığının inkişaf etdirilməsi istiqamətində əsaslı addımlar atılacaq. Hər halda gözlənti və ümidlərimiz çoxdur. Çünki biz Medianın İnkişafı Agentliyini mətbuatımızın keşiyində dayanan qurum kimi görmək istəyirik".

**Kənan**

## Şəhid analarına döş nişanı verilə bilər

### Qazi Anar Məmmədov: "Lakin əvvəlcə müəyyən məsələlər həllini tapsa, daha yaxşı olar"



**Millət vəkili Aqil Abbas maraqlı bir təkliflə çıxış edib. Onun sözlərinə görə, Sovet İttifaqı vaxtı bir çox statuslar, o cümlədən "qəhrəman ana" statusu var idi: "Onlara da tətbiq edilən güzəştlər olurdu. Çingiz Abdullayev çox maraqlı bir təkliflə çıxış edib ki, niyə bizdə "Şəhid anaları" medalı təsis edilmir? Çingiz Abdullayevin təklifi çox maraqlıdır. Hesab edirəm ki, bu məsələyə baxmaq olar".**

*Deputatın təklifinə dair "Şərq"ə danışan Qarabağ qazisi Anar Məmmədov bildirib ki, şəhid anaları ilə bağlı hansısa statusun olması çox yaxşı fikirdir.* Amma bu statusdan öncə Milli Məclisdə şəhid analarına, həmçinin qazilərə şamil edilən bütün imtiyazlar nəzərdən keçirilməlidir: "Bunlardan biri evlə bağlıdır. Yəni şəhid ailələri evlə əlaqədar müraciət edəndə, məsələ köhnədən qalma rus qaydaları ilə tənzimlənir. Fikrimcə, şəhid anaları üçün döş nişanı verilə bilər. Lakin əvvəlcə müəyyən məsələlər həllini tapsa, daha yaxşı olar. Məsələn, qazilərlə əlaqədar bir nüansı qeyd edim. Məlumdur ki, qazilərə avtomobil verilir. Cənab Prezidentin fərmanına əsasən, orada göstərilmir ki, hansı qazilərə maşın verilir və yaxud hansılara verilmir. Lakin aidiyyəti qurumlar filan qazilərə maşın verilir, digərlərinə isə verilə bilməz deyirlər. Belə hallara son qoyulmalıdır. Necə olur ki, Əfqanıstan veteranına avtomobil təqdim olunur, Qarabağ əlilinə isə fərqli şəkildə verilir. Deyirlər ki, filan xəstəlik olmalıdır ki, sizə maşın verilsin. Ev növbəsində də müəyyən məqamlar var. Məsələn, şəhid ailəsinin adına ev varsa və yaxud ipotekadadırsa, onlara ev düşmür. Düşünürəm ki, şəhid anaları üçün hansısa status verilməzdən öncə bəzi məqamlar həllini tapmalıdır".

**Yeganə**

# Kreml Azərbaycana qarşı yeni plan hazırlayır

"Rusiyada Azərbaycan üçün yeni mövzu tapıblar: Dağlıq Qarabağ münaqişəsi bitdiyindən Azərbaycan Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olsun!".

Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu feysbuk hesabında yazıb.





**Elxan Şahinoğlu:** *"Rusiyanın hərbi texnikasıyla Hərbi Qənimətlər Parkında tanış olmaq mümkündür"*

Analitik bildirib ki, Rusiya müharibədən əvvəl və müharibə zamanı Ermənistanı istənilən qədər silahla təchiz etdi və bu proses indi də davam edir: "Rusiya bugünə qədər Azərbaycan ərazisinə atılan "İsgəndər - M" raketlərinə aydınlıq gətirməyib. Bunun qarşılığında Azərbaycanın Türkiyə ilə hərbi ittifaqı güclənib və bu ittifaq getdikcə güclənəcək. Bunlar varkən Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlüyü mümkün deyil. İki il öncə "Azərbaycanın KTMT-yə üzvlüyü mümkündür" fikrini səsləndirən millət vəkillərindən biri ilə qiyabi polemikamız oldu.

O, fikrini belə əsaslandırırdı ki, Azərbaycan KTMT-yə üzv olsa, Rusiyadan daha münasib qiymətə hərbi texnika alacaq. Həqiqətən Azərbaycan bir neçə il ərzində Rusiyadan hərbi texnika alıb, ancaq sonra bu sahədə əsas tərəfdaşlarımız Türkiyə, İsrail və Belarus oldu. Misal üçün, Azərbaycan ötən il Rusiyadan hərbi texnika almayıb. Bu bizə artıq lazım deyil. Rusiyanın hərbi texnikasıyla Hərbi Qənimətlər Parkında tanış olmaq mümkündür. Ona görə "KTMT-yə üzv olaq və Rusiyadan ucuz qiymətə hərbi texnika alaq" bəhanəsi artıq işləmir".

**Avrasiya İqtisadi Birliyinə gəldikdə, politoloq vurğulayıb ki, bu quruma üzv olan ölkələr belə təşkilatdan narazıdırlar:**

"Türkiyə və Azərbaycan Türk Şurasını gücləndirməyə qərar veriblər. Avrasiya İqtisadi Birliyinin üzvü olan Qazaxıstan və Özbəkistan da bunda maraqlıdırlar. Ancaq Zəngəzur dəhlizi işə düşərsə və bununla regional layihələrin reallaşması sürətlənərsə, Avrasiya İqtisadi Birliyinə maraq arta bilər. Bu məsələdə Bakı ilə Ankaranın koordinasiyası vacibdir".

**Yeganə Bayramova**

# Türk Şurasının Media Koordinasiya Komitəsi yaradılır




Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin, yüksək vəzifəli rəsmilərinin üçüncü toplantısı keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Türk Şurası çərçivəsində media sahəsində əməkdaşlığın daha da sistemləşdirilməsinin tərəfdarıyıq.

"Azərbaycan və Türkiyənin regionda yeni siyasi reallıqlar formalaşdırması, digər qardaş türk dövlətlərin əl-qolunu açdı"



Bugünədək yaxşı təşəbbüslər olub. Lakin gəldiyimiz qənaətlərdən biri odur ki, təşkilat çərçivəsində Media Koordinasiya Komitəsi yaradılmalıdır. Necə ki, digər sahələrdə davamlı olaraq müvafiq komitələr çərçivəsində iş aparılır, bu istiqamətdə də işlər görülməlidir.

Prezidentin köməkçisi deyib: "Türkdilli ölkələrin dövlət media qurumları ilə bərabər, özəl media qurumları arasında da təmasların qurulmasına ehtiyac var. Çünki məqsəd məlumatların geniş şəkildə işıqlandırılmasına nail olmaqdır. Mediaforum konsepsiyası barədə də düşünürük. Ölkələr arasında biznes-forumlar keçirildiyi təqdirdə, media sahəsində də birbaşa əlaqələr qurulması məqsədəuyğundur. Bu gün media agentlikləri tərəfindən ilkin mənbədən olmayan məlumatlara istinadlar çoxdur".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Avropa.info xəbər portalının direktoru, jurnalist Ruslan Bəşirli bildirib ki, Türk Şurasında Media Koordinasiya Komitəsinin qurulması türk dövlətlərinin media siyasətini koordinasiya etmək baxımından ciddi fayda verə bilər.**

R.Bəşirli qeyd edib ki, eyni zamanda bu, türk dövlətlərinin siyasi, iqtisadi, mədəni sferada birləşməsi üçün də zəmin formalaşdıra bilər: "Əlbəttə, qardaş ölkələrin media strukturları fəaliyyətlərini koordinasiya edərlərsə, bu, qismən də olsa feyk xəbərlərin qarşısının alınmasına da səbəb ola bilər. Türk dünyası olaraq artıq mediamızı, siyasətimizi birləşdirməyin zamanı gəldiyini düşünürəm. 44 günlük Vətən müharibəsi zamanı Türkiyə mediası Azərbaycanın haqq işinə ciddi dəstək verdi".

*R.Bəşirli qeyd edib ki, təəssüf ki, digər türk dövlətlərinin media orqanlarından bu dəstəyi savaş zamanı ciddi mənada görə bilmədik:* "Lakin 44 günlük İkinci Qarabağ savaşı siyasi reallıqların da dəyişməsinə səbəb oldu. Azərbaycan və Türkiyənin regionda yeni siyasi reallıqlar formalaşdırması, digər qardaş türk dövlətlərin əl-qolunu açdı. Artıq bundan sonra media olaraq da bir-birimizə dəstək verməkdən çəkinməməliyik. Bu yolda qarşımıza çıxan bütün maneələri aradan qaldırmalıyıq. Koordinasiya Komitəsinin bu mənada da ciddi avantajı ola bilər".

**Aynurə Pənahqızı**

## Ukrayna ilə bağlı proqnozlar səhv çıxacaq

### Ərdoğan və Putin məsələni sakitliklə çözəcəklər



**"Ukraynada müharibə heç kimə lazım deyil. Bir çoxları bunun Amerikaya lazım olduğunu, onların Ukraynanı buna təhrik etdiyini deyirlər. Ancaq belə hesab etmək olar ki, Amerikasız müharibə çoxdan başlamışdı, özü də tək Ukraynada yox, həm də Rusiya tərəfindən".**

*Bu sözləri BAXCP sədrinin müavini, politoloq Azər Qasımov deyib.*

**O, "Şərq"ə açıqlamasında fikirlərini belə izah etdi: "Amerikanı dünya imperializminin mərkəzi hesab etdiyimiz vaxtlar çoxdan keçib.** Bu, sovet təbliğatının məhsulu idi. Amerika hazırda dünyada polis rolu oynayır, planetdə nizam-intizamı saxlayır. Ola bilsin ki, doğru hesab etmədiyimiz hallar olur, amma bu, bizim baxış bucağımızdır. Neytral tərəfdən baxsaq, bir çox şeylər öz yerinə oturur".

*A.Qasımov, həmçinin rəsmi Ankaranın proseslərə münasibətindən də söz açdı:* "Türkiyənin Ukrayna böhranında da həlledici rol oynayacağını hesab edirəm. Bir çox proqnozların əksinə Ərdoğanın Zelenski ilə görüşündən sonra problem mütləq danışıq yolu ilə həll olunacaq. Ərdoğan və Putin məsələni sakitliklə çözəcəklər. Normand formatının da təklif etdiyi kimi, Ukraynanın tərkibində Donetsk və Luqansk ərazilərində avtonomiya yaradılması üçün razılıq əldə olunacaq. Krım məsələsi isə hələlik bitmiş kimi görünür və Ukraynanın bunu dəyişmək gücü yoxdur. Krım məsələsinin Amerikanın Rusiyaya təzyiq üsulu kimi hələlik həll edilməmiş qalması lazımdır. Türkiyənin bu proseslərdə həlledici rol oynamaq üçün tərəflər üzərində böyük təsir vasitələri var. "Montrö və boğazlar anlaşması", eyni zamanda Rusiya və Ukrayna ilə olan əlaqələr ona bu imkanı verir. Amerika da böhran səngidiyi üçün geri çəkiləcək. Amerika Rusiyanın dövlət kimi mahiyyətini anladığı üçün onu mühasirəyə alır ki, heç kimə ziyan vurmasın. Dünyada ancaq Rusiyanı "düşmən", prezidentini isə "qatil" adlandırması səbəbsiz deyil".

**Kənan**

## Yeni səfirdən gözləntilər böyükdür

### "O da öz sələfləri kimi fəal olacaq"



**Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Cahit Bağçı gələn həftə Bakıya gələcək. Bu barədə Azvision.az-a Türkiyənin Azərbaycanda səlahiyyət müddəti başa çatmış səfiri Erkan Özoral məlumat verib.**

Diplomat bildirib ki, yeni səfir gələn həftənin əvvəlində Bakıda olacaq. Bundan əlavə diplomat bildirib ki, sabah Bakını tərk edərək Türkiyəyə dönəcək. Xatırladaq ki, E.Özoral 2016-cı ildə Azərbaycanda səfir postunda fəaliyyətə başlayıb. Onu bu vəzifədə yeni səfir Cahit Bağçı əvəz edəcək. C.Bağçı daha əvvəl Türkiyə Böyük Millət Məclisinin deputatı olub.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu yeni səfirdən gözləntilərini "Şərq"lə bölüşdü:** "Əlbəttə, ölkələr arasındakı əlaqələrin inkişafında səfirlərin də mühüm rolu var. İndiyədək Türkiyənin Azərbaycandakı bir neçə səfiri dəyişib və bu, çox normaldır. Fikrimcə, Cahit Bağçı da əlaqələrimizin inkişafında öz sələfləri kimi fəal olacaq. Xüsusilə indiki mərhələdə, yəni Bakı ilə Ankara arasında siyasi, hərbi və iqtisadi əməkdaşlığın genişləndiyi bir vaxtda buna çox ehtiyac var. Çünki həm qarşılıqlı səfərlərin, həm də ortaq layihələrin sayı artacaq".

**Kənan**

# Türkiyə hökumətinin qərarı tamamilə əsaslıdır

**"Kriptovalyuta etibarsız və konkret olaraq arxasında əmtəə dayanmayan bir valyutadır"**




Türkiyə Mərkəzi Bankı ölkə ərazisində kriptovalyutanın maliyyə əməliyyatlarında iştirakını qadağan edilməsi barədə qərar verib. Qadağa aprelin 30-dan etibarən qüvvəyə minir. Qərara əsasən, Türkiyədə istənilən növ kriptovalyutanın mal və xidmətlərə görə ödəniş vasitəsi kimi istifadəsi qadağan olunur.

**Mövzu ilə bağlı danışan iqtisadçı-ekspert Razi Abasbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyə hökumətinin bu qərarı tamamilə əsaslıdır.** Çünki kriptovalyuta etibarsız və konkret olaraq arxasında əmtəə dayanmayan bir valyutadır: "Bu gün dünya bazarlarında kriptovalyutaların real bazar dəyəri, onun əmtəə nişanı olaraq dəyər ifadə etməsi ciddi mübahisə doğurur. Nyu-York Fond Birjasında bu valyuta əslində müəyyən mənada hansısa spekulyasiya vasitəsi kimi istifadə edilir. Lakin Asiya və London birjalarında bu valyutanın real bazar dəyəri ifadə edilmir. Bu baxımdan da Türkiyə hökumətinin qərarı anlaşılandır. Bu gün SVİFT iştirakçıları kriptovalyutalarla bağlı olaraq dəyər indeksi təqdim etmirlər. Nəticə etibarıyla da dünyanın fond birjalarında elektron valyuta anlayışından irəli gədə bilməyən kriptovalyutalar istənilən halda dəyərsiz və daha çox dünya bazarında manipulyativ alət anlamına gəlir".

R.Abasbəyli əlavə edib ki, bütün dünyada pandemiya dövründə kriptovalyutaların istifadə edilməsinə əsasən, elektron ticarətdə cəhdlər oldu: "Qeyd edim ki, kriptovalyuta vizual olaraq meqaholdinqlərin payçıya və ya səhmdara çevrilmək şansı tanımayan valyuta növüdür. Real bazara inteqrasiyası ilə bağlı heç bir mühüm razılaşma, konsorsium mövcud deyil. Yəni siz bu gün dünya bazarında kriptovalyutaya sahib olsanız da faktiki birjada çox aşağı avantajlı iştirakçısınız və ilk növbədə bu valyutanın sığorta bazası etibarlı deyil. Lakin nə real dəyər qazandırmaq, nə də bu qazandıra biləcək dəyəri real alətə çevirmək hələ ki, mümkünsüzdür. Bu baxımdan da müstəqil olaraq sənaye istehsalı ilə dünya bazarında iştirakçı olan, o cümlədən də bazarda indekslər üzrə investor kimi pay sahibi olan səhmdarlar kriptovalyutaya maraq göstərmir. Yəni etibarsız və konkret olaraq arxasında əmtəə dayanmayan bir valyutanı pandemiya dövründə dəyərli bir maliyyə aləti kimi dünyaya təqdim etmək cəhdləri var. Hesab edirəm ki, Türkiyə hökumətinin bu qərarı tamamilə əsaslıdır".

**Aynurə Pənahqızı**



# "Pis adam idimsə, 30 il mənimlə dostluq etməzdi"

## Şahbaz Quliyev: "Sözü varsa gəlsin üzümə desin, yüz qram içib, arxamca danışmasın"

**Ötən ilin dekabrında uzunmüddətli əsirlikdən sonra Vətənə qaytarılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin arasında mübahisə yaranıb. Çünki D.Əsgərov və oğlu Kürdoğlu Əsgərov Ş.Quliyev haqqında yeni iddia və ittihamlar səsləndiriblər.**

K.Əsgərov deyib ki, Ş.Quliyev səhlənkarlıq edib, qaçaraq erməni evinə girib və orada vurularaq düşmən əsgərləri tərəfindən girov götürülüb: "Sonra Ermənistan ordusu Dilqəm Əsgərov və Həsən Həsənovun axtarışına çıxıb. Ş.Quliyev tutulan kimi D.Əsgərovun orada olduğunu ermənilərə bildirib və deyib ki, guya, başçıları atamdır. 11 iyulda atışma zamanı H.Həsənov vurulduqdan sonra 14 iyulda atam tutulub".

Bundan əlavə D.Əsgərov da Ş.Quliyevi "Paşinyanın dostu" adlandıraraq Həsən Həsənovun ölümündə onu günahlandırıb.

**"Şərq" də Şahbaz Quliyevin özü ilə əlaqə saxlayıb və onunla həmsöhbət olub.**

**- D.Əsgərov və oğlunun ittihamları haqqında nə deyə bilərsiniz?**

- Onlar nə danışır, anlamıram. Görünür, onun oğlu da Ermənistanda olub. Mənim xəbərim yox imiş. Çünki bunları oğlu danışıb. Amma yalan deyir.

**- İddia edirlər ki, siz əsir düşdüyünüz zaman düşmənə D.Əsgərovun dəstə başçısı olduğunu söyləmisiniz. Həmçinin H.Həsənov və D.Əsgərovun yerini də demisiniz.**

- Mənim ağzımdan elə bir söz eşitmisiniz? Onlar məndən 8 gün sonra tutulublar. Gedib hardasa gəziblər. İkisini də görməmişəm. Hara gediblər, xəbərim olmayıb. Belə başa düşürəm ki, D.Əsgərovun nəslində salamat adam yoxdur. Nə gəldi danışırlar. Hələ Dilqəm İlham Əliyevə minnətdar olsun ki, onu sağ-salamat Azərbaycana gətirdi. O, həyatını Ali Baş Komandana borcludur. Nə əziyyətlə bizi sağ-salamat ölkəyə qaytardı. Dilqəmin başqa nə isə deməyi, etməyi yaraşmaz. İçkili halda danışmağı düzgün deyil. Kürdoğlu da ermənilərin yanında olubsa, buna bir söz deyə bilmərəm. Onlara heç nə demirəm. Anlaya bilmirəm ki, nə istəyirlər. Mən də sonda detalları açıqlayacağam, görək axırı hara gedib çıxacaq.

**- Bəs Diqləm bəyin sizi Paşinyanın dostu adlandırmasından xəbərdarsınızmı?**

- Eşitməmişəm. Mən xəstəxanadayam. Nə televizora, nə də sosial şəbəbəkələrə baxıram. Belə məsələlərə fikir verəsi deyiləm.

Prezidentimiz sağ olsun, müalicələrim davam edir. Xəstəxanadan çıxıb nəfəs almamışam ki, Kürdoğluya, Dilqəmə cavab verim. Bu durum "keçi can hayında, qəssab piy axtarır" məsəlinə bənzəyir. Ayaqlarım yerimir, qoltuğumda da çəlik var. Onlar isə danışırlar. Bir də necə oldu ki, iki nəfər əsir düşüb, birini şil-küt ediblər, digərinə də şokolad yediriblər?! Hər ikisinə də psixiatr lazımdır.

**- D.Əsgərov sizi Həsən Həsənovun ölümündə günahlandırıb.**

- O artıq arxı keçib. Bir adam nə isə iş görəndə, günahlarını kiminsə üstünə atır. Göstərmək istəyir ki, özünün nədənsə xəbəri yoxdur. Lakin insanlar bilir kim nədir, nə deyil. Hər şey Dilqəmin yanında olub, elə Həsənin öldürülməsi də. Mən onlardan 8 gün tez tutulmuşam. İkisi də sağ-salamat gediblər. Biri ölüb, biri də salamat gəlib. İndi də nağıl danışır. İstəyirlər ki, insanlara yanlış məlumat versinlər. Gəlsin televiziyada, ya da radioda üzbəüz danışaq. Yanımda desin ki, bu işi o edib. Yoxsa 100 qram araq içib, nə gəldi söyləyir. Məsələn, mən də içkili çıxım, deyim ki, bütün İrəvanı dağıtmışam. İnanacaqsınız? Bu da eynilə elədir. Axı niyə internetdə danışır? Qarşı-qarşıya oturaq, 10 nəfər də hökumət adamı olsun. Desin ki, o bu işi görüb. Piyan olub, deyir, Paşinyanın dostudur. Paşinyanın



> "Hər şey Dilqəmin yanında olub, elə Həsənin öldürülməsi də. Mən onlardan 8 gün tez tutulmuşam. İkisi də sağ-salamat gediblər"

dostu mən niyə oluram ki? Mən 1990-cı ildən erməni ilə müharibə aparıram. Gəncədə 120 nəfər mənlə əsgərlikdə olan adam var. Tərtərdə də həmçinin döyüş yoldaşlarım olub. Hətta bütün Tərtər adından da danışıb. Tərtər qəhrəmanlar diyarıdı, nə qədər şəhid verib.

**- Siz onunla debata hazırsınızmı?**

- Bəli. Sözü varsa, gəlsin üzümə desin ki, Şahbaz, sən belə adamsan. Özu də pis idimsə, 30 ildir mənlə dostluq etməzdi. Qaldı ki, narkomanla internetdə nə söhbət edim. Bura gələndə onunla danışdıq, dedim nə səhvimiz varsa, danışıb, qurtaraq. Söylədiyin sözün arxasında durmalısan. Dünənə qədər deyirdi, erməni mənə bir çırtma da vurmayıb. Sonra da qayıdır ki, başıma o qədər vurublar, başım xarab olub. Elədirsə, get həkimə müalicə al, sonra danışaq. Qatır Məmmədin kinosuna baxmısız? Orada deyir, ay it, niyə hürürsən? Söyləyir ki, qorxuduram. Soruşur ki, bəs quyruğun niyə əsir? Cavab verir ki, özüm də qorxuram. Onu demək istəyirəm ki, qıraqda danışmasın. Hələ Dilqəm deyir ki, o mənə ermənilərin yanında şillə vurub. Səni neçə kilometr belimdə daşıyanda yaxşı oldum, iki şilləyə görə pisəm? Bir də ki, yaxşı edib vurmuşam. Özüm də deyirəm ki, ona iki şillə vurdum. Əcəb eləmişəm. Dilqəm yaxşı bilir niyə belə etdim. Dilinin üstündə! Deyirdi, guya, Şahbazla Həsən hökumət adamıdır, ona görə vurdum. Nə hökumət adamı? Qəbir ziyarətinə getmişdik.

**- Bəs hazırda səhhətiniz necədir?**

- Qabırğalarımda və ciyərimdə problemlər var. Xəstəxanadayam, hər gün biri zəng edir ki, Dilqəm belə dedi. O nə danışır, dost-tanış xəbər verir ki, bu belə söyləyib. Vallah, heç özüm baxmıram, müalicə alıram.

**Samirə Ərəblinski**

## Türkiyədə içərisində nazirin olduğu təyyarə qəza enişi edib



**Türkiyədə içərisində kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirlinin olduğu təyyarə qəza enişi edib.**

APA-nın yerli bürosunun CNN Türk-ə istinadən verdiyi xəbərə görə, təyyarənin sol mühərrikində problem yaranıb.

Təyyarədə nazirdən başqa, nazir müavini, nazirliyin əməkdaşları və AKP Şırnak millət vəkili Rizgin Birlik də olub. Ankaradan Şırnaka uçan təyyarə Malatyada hava limanına enib.

## Qarabağ separatçılarının "lideri" ifadəyə çağırıldı

**Qarabağda yaradılmış qondarma rejimin "lideri" Araik Arutyunyan cinayət işi ilə bağlı ifadə vermək üçün prokurorluğa çağırılacaq.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, o, "konstitusion rejimin devrilməsi cəhdi" ilə bağlı davam edən cinayət işi zamanı ifadə verəcək.

Qeyd olunur ki, A.Arutyunyanın ifadəyə çağırılacağı tarix tezliklə elan olunacaq.

# Liderlər məqbul yol tapacaqlar

## "Putin və Ərdoğan ən böhranlı situasiyada bir araya gəlməyi bacarır"

**"Rusiya-Türkiyə əlaqələri ziqzaqvari davam edir. İki ölkə arasında gərginlik Ukrayna böhranına görə bir müddət davam edəcək".**

**Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspertin qənaətincə, Türkiyə Suriyanın İdlib bölgəsi ilə bağlı Rusiyaya müəyyən təzyiqlər edir.** Çünki son günlər Rusiya İdlibdə Türkiyənin maraqlarına qarşı fəaliyyətə keçib: "İdlibdə humanitar böhran körüklənir. Tərəflərin növbəti dəfə ortaq məxrəcə gəlməsi mümkündür. Bu onu göstərir ki, Rusiya-Türkiyə münasibətləri həssasdır və bu, digər regionlarda açıq qarşıdurmaya gətirib çıxara bilər. Hər iki tərəf potensial qarşıdurmadan



> "Ankara elə bir addım atır ki, bu, Rusiya ilə iqtisadi-enerji əməkdaşlığına zərər vurmasın"

çəkinir. Çünki iki ölkə arasında enerji, iqtisadi və hərbi-texniki əməkdaşlıq yüksək səviyyədədir. Ukrayna böhranında bu sahələrin zərər görməməsi üçün tərəflər münasibətləri kəskinləşdirməyəcək. Türkiyənin atdığı addımlar bir ölkənin işğalçı siyasətinin qarşısını almağa yönəlib. Həmçinin, Rusiyanın Ukrayna və Qara dənizdə üstünlüyü Türkiyənin regional təhlükəsizliyi üçün də risklidir. Ona görə də Ankara elə bir addım atır ki, bu, Rusiya ilə iqtisadi-enerji əməkdaşlığına zərər vurmasın. Həm də Ukrayna və Qara dənizdə Türkiyənin maraqlarını tanısın. Ümumiyyətlə, Putin və Ərdoğan ən böhranlı situasiyada bir araya gəlməyi bacarır. Hazırkı vəziyyətdə də tərəflər məqbul yol tapacaqlar və Qarabağdakı Birgə Monitorinq Mərkəzində əməkdaşlıq sahəsində problem olmayacaq".

**İsmayıl**

# 80 min şagird məktəbə getmədən məzun oldu

## "Pandemiya imtahan nəticələrində hiss ediləcək"



Dövlət İmtahan Mərkəzi aprelin 15-16-da tam orta təhsil üzrə buraxılış imtahanlarının keçirilməsini başa çatdırdı.

DİM-in məlumatında qeyd olunur ki, pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz siperi, tibbi maska və s.) təmin olunub.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib. İmtahan keçirilən binaların qarşısında sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilib. İmtahan binasına buraxılış rejiminin növbə ilə - lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunub.

İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub.

Bədən hərarəti normadan yüksək olan şagirdlər binalardakı təcili tibbi yardım üzrə həkimlərin rəyi ilə imtahana buraxılmayıb. İmtahanda iştirak etmək üçün tələb olunan sənədləri qaydasında olmayan - şəxsiyyət vəsiqəsini evdə unudan, şəxsiyyəti təsdiq edən sənədin surəti ilə imtahana gələn və ya vəsiqəsində şəkli olmadığı üçün məktəbdən verilən şəkilli arayışı özü ilə gətirməyən şagirdlər də olub.

İmtahanlarda istifadə edilmiş yazılı cavab tələb edən açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

Qabaqlayıcı tədbirlər, təşkilatı işlər öz yerində, bəs imtahanlardan hansı nəticələr gözlənilir? Pandemiya şəraitinin 1 ildən artıq davam etdiyi, distant təhsildə yaşanan məlum problemlərin buraxılış imtahanlarının nəticələrinə mənfi təsir göstərməyəcəyini söyləmək çətindir.

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, pandemiyanın imtahan nəticələrinə təsiri az və çox, hər halda hiss ediləcək:**

- Nəzərə alaq ki, bu il 80 min çox şagird məktəbə getmədən məzun oldu. Səbəblər bəllidir; pandemiya, distant təhsil, keyfiyyətsiz internetin, həmçinin texniki imkansızlığın bir çox hallarda mümkünsüz etdiyi onlayn dərslər. Eyni zamanda sentyabr-noyabr ayları ərzində 44 gün müddətində yaşadığımız, qələbə ilə başa çatan Vətən müharibəsi. Belə şəraitdə buraxılış imtahanlarından ötən illərdəki nəticələri gözləmək düzgün olmazdı. Amma nəzərə alaq ki, söhbət "11-cilər"in buraxılış imtahanalrından gedir. Yəni "11-cilər"in normal vaxtlarda da dərs davamiyyətləri zəif olurdu və hamımız bilirik ki, 9-cu sinifdən etibarən şagirdlərin əksəriyyəti repetitor hazırlığına gedir. Amma bu il repetitor hazırlıqları da davamlı olmadı. Yoluxma təhlükəsi ilə bağlı. Hazırlıq kurslarının fəaliyyətində dayanmalar yaşandı, üz-üzə hazırlıq keçən müəllimlər də onlayn dərslərə üstünlük verdilər. Bütün bu amillərlə yanaşı yenə də mən buraxılış imtahanlarının nəticələrinin orta səviyyədən aşağı olacağını düşünmürəm. Çünki "11-cilər" nə qədər olmasa da, yenə də hazırlığa, repetitor yanına gediblər, hazırlaşa biliblər.

### "Buraxılış imtahanlarının nəticələrinin orta səviyyədən aşağı olacağını düşünmürəm"

**K.Əsədov builki buraxılış imtahanlarında monitorinq apardıqlarını da söylədi:**

- Paytaxt üzrə 11 rayondan 8-də monitorinq aparmışıq. Sorğularda 2000 şagird iştirak etdi. Test tapşırıqlarından narazı deyildilər. Sizə deyim ki, DİM təklifləri nəzərə alaraq buraxılış imtahanı tapşırıqlarını yalnız 1-ci yarımilin tədris proqramından tərtib etmişdi. Ona görə də şagirdlər çətinlik çəkməməli idi. Monitorinqin nəticəsi belədir ki, şagirdlər Azərbaycan dili və xarici dildən daha yaxşı nəticə göstərib. Riyaziyyat fənninin tapşırıqlarına əməl etmək bir qədər çətin olub. Bu da anlaşılandır. Dərslərin onlayn keçirilməsi riyaziyyat fənnini lazımi qaydada, istənilən səviyyədə mənimsəməyə imkan verməyib. Xarici dildən isə şagirdlərin çətinliyi dinləmə sualları ilə bağlı olub. Şagirdlər bu tip suallara yaxşı cavab verə bilməyib. Ümumilikdə mən nəticələrin orta səviyyənin üzərində olacağını düşünürəm.

**Məlahət Rzayeva**



## Minaya düşərək şəhid olan əsgərimiz dəfn edilib

### İlkin Bayramov Ağstafa rayonunun Pirli kəndində torpağa tapşırılıb

**Azərbaycan Ordusunun aprelin 4-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində minaya düşərək yaralanan əsgəri və şəhidlik zirvəsinə ucalmış Bayramov İlkin Bayram oğlu dəfn edilib.**

"Report"un xəbərinə görə, mərhum doğulduğu Ağstafa rayonunun Pirli kəndində torpağa tapşırılıb.

Dəfndə rayon ictimaiyyətinin nümayəndələri, müxtəlif dövlət qurumlarının vəzifəli şəxsləri, hərbçi yoldaşları, yaxınları və rayon sakinləri iştirak ediblər.

## Sağalanların sayı yoluxanları ötdü

### Son sutkada 32 nəfər koronavirusdan vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2163 yeni yoluxma faktı qeydə alınıb, 2251 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 296 374 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 260 193 nəfər müalicə olunaraq sağalıb, 4077 nəfər vəfat edib, aktiv xəstə sayı 32104 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 13 478, ötən müddət ərzində isə ümumilikdə 3 082 157 test aparılıb.*

# "Bizim vasitəçiliyə ehtiyacımız yoxdur"

## Cümşüd Nuriyev: "Rusiya yenə də vasitəçilik missiyası adı ilə həm Azərbaycanı, həm də Ermənistanı siyasi çərçivəyə salmaq istəyir"

Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlaması ilə gündəmə gəlib. O bildirib ki, Rusiya Azərbaycanla Ermənistan arasında davamlı sülhün və mehriban qonşuluq münasibətlərinin formalaşmasına istiqamətlənmiş təşəbbüslərə yardım göstərməyə hazırdır.

M.Zaxarova qeyd edib ki, Cənubi Qafqazın sabitliyi və davamlı iqtisadi inkişafı Rusiyanın bu bölgədəki bütün tərəfdaşlarının maraqlarına cavab verir: "Bakı ilə İrəvan arasında davamlı sülhün və mehriban qonşuluq münasibətlərinin formalaşmasına istiqamətlənmiş təşəbbüsləri alqışlayırıq. Əlbəttə ki, Azərbaycan və Ermənistan qarşılıqlı etimadın lazımi səviyyədə qurulması, ikitərəfli münasibətlərin normallaşdırılması üçün çətin bir yolun başlanğıcındadırlar. İnanırıq ki, praktiki işlərdə tərəflər ayırıcı xətlərə deyil, münasibətlərin normallaşmasına və etimad atmosferinin yaradılmasına səy göstərəcəklər".

Görünən odur ki, Rusiya hər zamankı kimi yenə də "vasitəçilik" adı ilə aranı qarışdırmağa çalışır. Bu baxımdan Zaxarovanın sözlərində nə dərəcədə səmimi olduğu şübhə doğurur.



**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında söyləyib ki, Zaxarovanın dediklərinin hər biri Rusiya XİN başçısının mövqeyidir. Analitikin fikrincə, onun belə açıqlama verməsi heç də təsadüfi deyil:** "3 gün öncə Prezident İlham Əliyev ADA Universitetində Cənubi Qafqazla bağlı çıxışında bildirdi ki, Azərbaycan Ermənistanla münasibət qurmağa hazırdır. Ölkə başçısı söylədi ki, bu ünsiyyətlərin bərpasında Azərbaycan tərəfindən hər hansı bir problem yoxdur, amma Ermənistanda revanşizm baş qaldırıb. Xüsusilə, erməni müxalifəti kifayət qədər destruktiv mövqe tutur və yenə də Qarabağ məsələsini gündəmə gətirməyə çalışırlar. Yəni problem Ermənistandadır. Prezident bildirdi ki, biz Zəngəzura qayıdırıqsa, nə üçün İrəvana qayıtmayaq? Biz ərazi iddiası irəli sürmürük. İrəvana qayıtmaq o deməkdir ki, danışıqlar Azərbaycan və Ermənistanda keçirilə bilər. Ölkə başçısı bu mənada İrəvana qayıtmaq məsələsini gündəmə gətirdi. Azərbaycanın birbaşa Ermənistanla əlaqə qurmaq istəməsi təbii ki, Rusiyanı qıcıqlandırmaya bilməzdi. Ona görə də Rusiya Zaxarova vasitəsilə belə açıqlamanı gündəmə gətirdi".

**C.Nuriyev vurğulayıb ki, Rusiya yenə də vasitəçilik missiyası adı ilə həm Azərbaycanı, həm də Ermənistanı siyasi çərçivəyə salmaq istəyir:** "Zaxarovanın açıqlaması da məhz bununla bağlıdır. Bütün hallarda Rusiya nə Ermənistanın, nə də Azərbaycanın maraqlarını güdür. Kremlin özünün Qafqaz maraqları, imperiya ambisiyaları var. Həmin ambisiyalardan da əl çəkməyib. Nəzərə alsaq ki, artıq ABŞ da Rusiyaya müxtəlif sanksiyalar tətbiq edib. Beləliklə, rəsmi Kreml istər-istəməz siyasi qüdrətini gündəmə gətirmək istəyir. Yəni ki, "bütün qonşu respublikalar mənim nəzarətimdədir və kimsə bu işlərə qarışa bilməz". Bu baxımdan Zaxarovanın açıqlamasında heç bir səmimiyyət yoxdur. Azərbaycan Ermənistanla münasibətlərini birbaşa özü qurmalıdır. Biz müstəqil dövlətik və hər hansı bir vasitəçiliyə ehtiyacımız yoxdur. Rusiya 30 il müddətində ATƏT-in Minsk qrupu kimi nə etdi ki, məsələ həll olunandan sonra nəsə etsin? Rusiyanın növbəti qeyri-səmimi addımına inanmaq olmaz!".

**Yeganə Bayramova**



Azərbaycanlıyam Necə də qürurlu səslənir bu söz. Çox xoşbəxtik ki, torpaqları işğaldan azad olunmuş, müstəqil dövlətdə yaşayırıq.

Bir neçə gündür ki, əhalinin üzünə açıq olan Hərbi Qənimətlər Parkına getməyi əvvəlcədən planlaşdırmışdım. Elə bu amalla rəfiqəm Zari Nərminə ilə həmin əraziyə yol aldıq.

"28 May" metrostansiyasına gəldik. Düz mərkəzdə dayanıb, əraziyə necə gedəcəyimizi düşünürdük.Yenə də köməyimizə "google map" çatdı. Ayaqla getmək vaxt aparacaqdı deyə, taksi ilə nəhayət Parka çata bildik.



# 44 günün qənimətləri...

## Boş qalmış dəbilqələr düşmənə göz dağıdır

## Bütün Bakı əhli "müharibəyə" baxmağa gedir







## "Bakının dəlisov küləyi dəbilqələri bir-birinə toxundurur, ikiqat ovqat yaranır"

Sırada o qədər insan var idi ki Uşaqdan böyüyə hər kəs ələ keçirilən hərbi qənimətləri görmək üçün saatlarla gözləməyə hazır idilər.

*- Gör nə qədər adam dayanıb sırada?!*

*- Eybi yox, həmin qənimətləri görmək üçün bir az gözləmək olar.*

Bu günə qədər demək olar, Bakının hər görməli gəzməli yerlərində olmuşam, belə bir qürurverici məkan tapmamışdım. Amma indi ordayam. Məhz bu park Azərbaycanın Qarabağ müharibəsində şanlı qələbəsini əks etdirir. Gördüklərim gözlədiklərimdən qat-qat artıq oldu

Girişdə bizi ilk növbədə suvenirlər pavilyonu, daha sonra "Qarabağ Azərbaycandır" lövhəsi qarşıladı. Bu ekspozisiyanı Zəfər paradından hər biriniz xatırlayırsız. Lövhəni görən kimi Paşinyanın trend olan videosu yadıma düşdü.. Deyirdi ki, Qarabağ Azərbaycan ərazisidir. Sonra üzr istəyib "səhvini" düzəldir. Sındıra-sındıra ingilis dilində danışan, Paşinyan, dil çaşar, düzünü deyər... Azərbaycan Ordusunun II Qarabağ müharibəsində düşmənin 2 mindən çox nişan nömrələrindən hazırlanan kompozisiyaya indi ziyarətçilər baxır. Üzərində isə tək bir yazı var: "Qarabağ Azərbaycandır!".

... Hərbi eksponatların nümayiş olunduğu Parkın ərazisi 5 hektardır. Məkandakı hər bir element nadirdir.

Erməni tərəfi 44 günlük müharibə dönəmində hərbi texnikalarını qoyub qaçıb, ya da bütün zirehli texnika parampərça olub. İndi də biz şəhər sakinləri onları izləməyə gedirik. Bax, bu yerdə, Prezident İlham Əliyevin müharibə günlərində dillərə düşmüş məhşur "iti qovan kimi qovuruq" ifadəsi, həqiqəti əks etdirir

Hə, onu da deyim ki, parkda nümayiş edilən texnikalar, həmçinin ekspozisiyalar çox incəliklə və məharətlə hazırlanıb. Ərazidə ekspozisiyalardan savayı, düşmənin sıradan çıxarılmış döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa", KUB zenit-raket kompleksləri və digər eksponatlar sərgilənir. Çoxu "Vətən müharibəsi" dövründə vurulma anlarını gördüyümüz texnikalara olsa da, bəziləri saz vəziyyətdədir. Azərbaycan Prezidenti İlham Əliyevin Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələri, xalqa müraciətlərdən ibarət hissələr ərazidəki videozalda nümayiş etdirilir.

Parkda gəzəndə çox maraqlı yerləri addımbaşı görmək olur. Məni ən çox cəlbedən ekspozisiya var idi. Düşmənin boş qalmış dəbilqələrindən ibarət olan yer.. Bu dəbilqələrin hər biri düşmən ordusuna göz dağıdır! Bakının dəlisov küləyi dəbilqələri bir-birinə toxundurur, ikiqat ovqat yaranır.

Diqqətimi cəlb edən digər hissə silah sandıqlarından düzəldilmiş oturacaqlar, atılmış silah-sursatlardan düzəldilmiş işıqlandırma, zibil qabları... Bununla Azərbaycan xalqının kin və nifrət hisslərindən uzaq, xeyirxah və sülhpərvər xalq olduğunu bütün dünyaya çatdırmış oluruq.

Real müharibə səhnələrini əks etdirən kazarma, səngərlər, xəndəklər, hərbi texnikaya qarşı quraşdırılmış maneələri gördükcə daha da qürur duyurdum.

Gəzintidə hərbi forma geyinmiş uşaqlarla da rastlaşırdım. Valideynlər övladlarını parka gətirərək texnikalarla tanış edirdi. Yeni istifadəyə verilən ərazidə hər yaş qrupundan insan görmək olardı. Bir də Qarabağ müharibəsinin canlı şahidlərini...

Kənardan müşahidə edirəm.





Balaca hərbi formalı oğlan qazimizə yaxınlaşır. Atası onların şəklini çəkir. Qazi üzü bizim istiqamətdə yaxınlaşır. Ayağı axsayırdı. Bu gün zövq alaraq baxdığımız qənimətlər onun kimilərin əl işidir.

Hərbi Qənimətlər Parkına gələsən, "əl işlərinin müəllifi ilə" həmsöhbət olmayasan?! Erməni dəbilqələrini boş qoyan igidlərimizdən biri Cəfər Hüseynov olub. Veteranlar Şurasının üzvü olan Cəfər, Cəbrayıl və Qubadlı istiqamətdə gedən döyüşlərdə mərdlik göstərib. Həmçinin 2015-ci ildəki aprel döyüşlərində də iştirak edib. O deyir ki, 27 sentyabr çox qürurverici gündür. Düzü, sözlərini ifadə etməkdə çətinlik çəkirdi. Canlı şahidə baxıb qürur duymamaq mümkün deyil... "Hər kəsin baxmağa gəldiyi bu tankları güclü Ordumuz məhv edib" deyən Cəfəri çox da yormayıb, parkı gəzməyə davam edirik. Qarşımızdakı texnikanın üzərində partlayıcı görürük. Rəfiqəm texnikaya yaxınlaşır. Bir az kənardan Cəfərin səsini eşidirik "yavaş olun, partlayar". Həmən gülümsəməyə başlayırıq. Məkan elə dizayn edilib ki, sanki müharibənin içərisindəyik. Rəfiqəmlə mən də, həmin ab-havaya qapılmışdıq...

...

Gəzinti zamanı dron və artilleriyamızın, eləcə də, idarəolunan raketlərimizin məhv etdiyi T72 tankları, BMP1 və BMP2, müxtəlif kalibri və təyinatlı topları, artilleriya kəşfiyyat sistemlərini, bir sözlə, düşmənin hər növ texnikasını görəcəksiz. Onların qarşısında yerləşdirilən məlumat tablosu imkan verir ki, baxdığın silah-sursatla tanış ola biləsən. Bu yerdə, Şah İsmayıl Xətainin bir deyimini xatırə düşür: "Qılınc həmin qılıncdır, qol o qol deyil". Bəli, silah-texnika düşməndə də ola bilər, lakin əsgər həmin əsgər, ürək həmin ürək deyil.

Düşmən bunkerinin içərisində olan eksponatlar vaxtilə ermənilərə məxsus olan elementlərdir. Plakatlar da, şəkillər də, hətta yerə döşənən üzlük də... Hələ ermənilərin istifadə etdiyi qaşıq, boşqab, duzqabıdan danışmıram...

Silah, yemək anbarı, yeməkxana, əsgər yataqxanası və komandir otağında olan hər bir əşya və silahlar ermənilərdən ələ keçirilən qənimətlərdir.

Erməni əsgərlərin mum mulyajlarının ayrı marağı var. O qədər təbiidir ki... Simasını itirmiş erməni mulyajları çox yaxşı hazırlanıb.

Yeri gəlmişkən, yuxarıda Cəfərin adını çəkmişdim. O, Azərbaycanı "Azərbaycan" edən oğullardan sadəcə biri idi. Bu gün Vətənimizdə başıuca gəziriksə, bunu şəhidlərimizə, qazilərimizə, cəsur oğullarımıza borcluyuq.

Ərazidə o qədər danışılası yer var, hisslərini yaz, yaz bitməz. Yaxşısı özünüzün gedib görməyidir. Mən də, Hərbi Qənimətlər Parkına görüşənədək deyirəm... Ümid edirəm ki, yaxın bir zamanda Qarabağımızda yaradılan parklardan reportaj yazaram...

*Yazını sonlandırmadan bir nüansı da qeyd etmək istəyirəm. Ermənistanı deyirəm. Müharibə vaxtı məntiqsiz fikirlərlə gündəmə gəlirdilər. Tonoyanın "yeni müharibə və yeni ərazislər" tezisi... Paşinyanın təhdid ritorikası... Bu təhdidlər sırasında Ermənistan Müdafiə Nazirliyinin sabiq əməkdaşı Artsrun Ovannisyan dediyi "möhtəşəm" idi: "Müharibə başlasa, tanklarımız Bakıya gələcək". Necə də, uzaqgörən "adamdılar". Gözün aydın, Ovannisyan... Bu gün erməni tankları Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Amma "əsir" kimi...*

**Aygün Tahirqızı**

# ABŞ-Rusiya münasibətlərinə görə neft sürətlə bahalaşır



## *Son siyasi proseslər dünya bazarlarına da təsirsiz ötüşməyib*

CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti aprelin 15-də 66,04 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,12 dollar/barel çoxdur. Bu barədə ölkənin neft-qaz bazarındakı mənbə bildirib.

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 65,4 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,12 dollar/barel çoxdur. Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti isə 63,24 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,12 dollar/barel çoxdur. Şimal dənizindən hasil edilən "Brent Dated" etalon növlü neftin qiyməti 65,54 dollar/barel olub ki, bu da əvvəlki göstəricidən 0,13 dollar/barel çoxdur.

Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında vurğulayıb ki, ABŞ-Rusiya münasibətlərində yenidən gərginlik müşahidə olunur. ABŞ Prezidenti Co Bayden Birləşmiş Ştatların Rusiyaya qarşı daha ciddi sanksiyalar tətbiq edə biləcəyini, lakin bunu etməməyi qərara aldığını bəyan edib. Görünən odur ki, hələlik rəsmi Vaşinqton Moskva ilə əsas körpüləri yandırmaq niyyətində deyil. Bununla belə, son açıqlamalar dünya bazarlarına da təsirsiz ötüşməyib.

Artıq Brent markalı neftin 1 barelinin qiyməti 68 dollara yaxınlaşır".

V.Bayramov qeyd edib ki, son 10 gündə neftin dünya bazar qiyməti 8 faizdən çox bahalaşıb: "ABŞ-Rusiya münasibətlərində soyuqlaşma müşahidə edilən son 2 gündə isə "qara qızıl" 5 faiz dəyər qazanıb. Doğrudur, neftin dünya bazar qiymətindəki artımlar ABŞ və Avrozona iqtisadiyyatı ilə bağlı pozitiv mesajların gəlməsi ilə də bağlıdır. Əksər ölkələrdə pandemiyanın üçüncü dalğasının müşahidə olunmasına baxmayaraq vaksinasiya prosesi investorlarda real sektorda artımla bağlı yeni ümidlər forlamalaşdırıb. Eyni zamanda, OPEK + anlaşmasında mühafizəkar meyillərin qorunub saxlanılması və hasilatın kəskin artımına gedilməməsi də neft bazarındakı tarazlığa müsbət təsir göstərir. Hələlik qlobal valyuta bazarında "sakitlik" müşahidə olunsa da, regionun əsas dövlətlərinin milli valyutalarına dollar təzyiqi hələ də yumşalmayıb".

**Aynurə Pənahqızı**



## Çin korona ilə bağlı açıqlama vermir

### ABŞ isə araşdırmalarını davam etdirir

**ABŞ kəşfiyyat xidmətləri yeni növ koronavirusun necə meydana gəlməsi ilə bağlı araşdırmaları davam etdirir.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. ABŞ Milli Kəşfiyyat İdarəsinin direktoru Avril Haynes iki mümkün variantın olduğunu bildirib. Bunlardan birincisi virusun süni şəkildə, laboratoriyalarda hazırlanması, ikinci isə iddia edildiyi kimi, heyvandan insana keçməsidir.

Həmçinin Çinin sözügedən məsələ barədə açıqlama verməkdən çəkindiyi vurğulanır.

Mütəxəssislər virusun süni şəkildə yaradılmasına inanmırlar.

**Kənan**

## Ankara geri addım atmayacaq

### Bu gedişat Yunanıstanın xeyrinə olmayacaq



"Ya ortaq yol tapılmalıdır, ya da Kiprdəki senari təkrarlanmalıdır"

**Türkiyədə səfərdə olan Yunanıstan Xarici işlər naziri Nikos Dendiasın türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransı zamanı xoşagəlməz hadisə yaşanıb.**

"Haber Global"ın məlumatına görə, yunanıstanlı nazirin əsassız ittihamları Türkiyə XİN rəhbəri M.Çavuşoğlunu qəzəbləndirib.

"Türkiyə hüquqlarımızı, suverenliyimizi pozmağa davam edərsə, sanksiyalar yenidən gündəmə gələcək", - deyə N.Dendias bəyan edib.

"Türkiyə ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin pozitiv bir mühitdə keçirilməsini arzu edirik, lakin yunan həmkarım Türkiyə haqqında qəbuledilməz ittihamlar səsləndirdi. Cənab Dendiasın mətbuatın önündə millətimizi, dövlətimizi ağır şəkildə ittiham etməsini qəbul etmirəm", - deyə Çavuşoğlu etiraz edib.

Nazirlərin söz toqquşması ölkələr arasındakı əlaqələrin heç də yaxşı olmadığını bir daha göstərir. **Siyasi analitik Turab Rzayev Türkiyə və Yunanıstan münasibətlərinin gələcək inkişafı barədə fikirlərini "Şərq"lə bölüşdü:** "Tərəflər arasında razılığın əldə olunması çətin görünür. Əvvəlki hadisələrdən Yunanıstanın "şıltaqlığının" nə ilə nəticələndiyini yaxşı bilirik. Yunanıstanın Türkiyənin varlığını Kiprdə və Ağ dənizdə görməzdən gəlməsi onun üçün baha başa gələ bilər. Hər halda rəsmi Ankara açıq şəkildə göstərdi ki, geri addım atmayacaq. Deməli, ya ortaq yol tapılmalıdır, ya da Kiprdəki senari təkrarlanmalıdır. Gedişatın Yunanıstanın xeyrinə olmayacağını düşünürəm".

**Kənan**

# Paşinyan yenə özünü ifşa edir

## *Baş nazirin sözü ilə əməli üst-üstə düşmür*



"O, parlament seçkilərində qalib gəlsə belə, yenə də hakimiyyəti üçün təhdid olacaq"

Ermənistanın Baş naziri Nikol Paşinyan ölkə parlamentində çıxışı zamanı növbəti sərsəmləmələri ilə diqqət çəkməyə çalışıb. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, N.Paşinyanın söylədiyi fikirlər şərh olunmağa belə layiq deyil.

*XİN Paşinyana Hüseyn Cavidin şeirini xatırladıb.*

*"Ağır məğlubiyyətdən nəticə çıxarmayan Baş nazir Paşinyana elə onun istinad etdiyi şeir dili ilə izah etmək istərdik. Hüseyn Cavidin dediyi kimi:*

**"Yurdumuzu çiynəyən**<br>
**Sayğısız hər kim olsa.**<br>
**İnan ki, çox sürmədən,**<br>
**Diz çökəcək qarşıda".**

Millət vəkili, politoloq Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında Paşinyanın açıqlamalarını belə şərh etdi: "Bu, onun paradoksal siyasətçi olduğunu göstərir. Çünki baş nazir yaxın keçmişdə Azərbaycan və Türkiyə ilə əlaqələrin loyallaşmasından danışırdı. İndi isə həmin bəyanatına zidd fikirlər səsləndirir. Dediyim kimi, onun əməli ilə sözü üst-üstə düşmür. Paşinyan özü də yaxşı başa düşür ki, mövcud vəziyyətə, Azərbaycanın yaratdığı yeni reallığa uyğun davranmaqdan başqa yolu yoxdur. Çünki 10 noyabr və 11 yanvar bəyanatlarını imzalayıb. Əgər 10 noyabr anlaşmasının şərtlərindən narazı qalsa idi, sonradan dinməz-söyləməz Moskvaya getməzdi. İkinci bir tərəfdən isə Ermənistanın ordusu və resursu yoxdur. Yəni baş nazir hansısa alternativdən məhrumdur və onun son açıqlamaları siyasi blefdir".

*E.Mirbəşiroğlunun fikrincə, bundan sonrakı dövr də baş nazir üçün çətin olacaq:* "Paşinyan iyun ayında keçiriləcək növbədənkənar parlament seçkilərinə indidən hazırlaşmağa başlayıb. Revanşist bəyanatları da ancaq xalqın səsini qazanmaq üçündür. Yəni həmin açıqlamalar daxili auditoriyaya hesablanıb. Lakin o, seçkilərdə qalib gəlsə belə, yenə də hakimiyyəti üçün təhdid olacaq. Deməli, siyasi gərginlik, qarşıdurma sovuşmayacaq. Bu isə rəsmi İrəvanı inkişafdan, müxtəlif sahələrdəki nailiyyətdən məhrum edəcək".

**Kənan Novruzov**

## Onlar əsir deyillər

### Ermənistanın terrorçuları tələb etməyə haqqı yoxdur



**"Ermənistanın süni gündəm yaratmaq cəhdi iflasa məhkumdur". Bu sözləri politoloq Nurlan Qələndərli deyib.**

**O, məsələ barədə daha ətraflı "Şərq"ə danışdı:** "Ermənistanın "hərbi əsirlərin qaytarılması" mövzusunda süni gündəm yaratmaq cəhdi siyasi manipulyasiyadır. Məqsəd bu ölkənin üçtərəfli bəyanatın bəzi müddəalarından irəli gələn tələbləri icra etməməsindən diqqəti yayındırmaqdır. Özlərinə də yaxşı məlumdur ki, hərbi əsirlər mövzusu artıq öz həllini tapıb. Azərbaycan tərəfi üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistana 70-dən artıq hərbi əsir verib".

**N.Qələndərlinin fikrincə, rəsmi İrəvanın terrorçuların geri qaytarılmasını tələb etməyə haqqı yoxdur:** "Sirr deyil ki, 10 noyabr razılaşmasından sonra Ermənistan Azərbaycanın ərazilərində bir sıra hərbi təxribatlar törətməyə cəhd göstərib. Nəticədə hərbçilərimiz həlak olub, mülki şəxslər yaralanıb. Azərbaycan tərəfi ermənilərin həmin təxribatçı qruplarını zərərsizləşdirib və cinayətkarlar tutulub. Nəticə etibarilə, 10 noyabr 2020-ci il tarixli bəyanatın imzalanmasından, yəni hərbi əməliyyatların dayandırılmasından sonra Azərbaycanda saxlanılan şəxslər hərbi əsir hesab edilmirlər. Beynəlxalq humanitar hüquq normaları bu məsələni dəqiq təsbit edir. Onlar Azərbaycan Respublikasının cinayət məcəlləsinə görə qanun qarşısında hüquqi məsuliyyət daşıyırlar. Ermənistan bu cür spekulyasiyalarla məşğul olmaq əvəzinə, üçtərəfli bəyanatda əksini tapmış öhdəliklərinə qeyd-şərtsiz əməl etməlidir".

**Kənan**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Ruhlar şəhərinə media əhlinin səfəri

## Ağdamda nə bir ağ dam qalıb, nə xiyaban, nə də məzar yeri

İşğaldan azad olunmuş rayonlarımızın mövcud durumunu dünya ictimaiyyətinin diqqətinə çatdırmaq KİV-in ən ümdə vəzifələrindən sayılır. O baxımdan Qarabağa beynəlxalq diplomatik korpusun, əcnəbi qonaqların səfərləri ilə yanaşı, xarici və yerli mətbuat təmsilçilərinin turları da təşkil olunur.

Aprelin 15-də Media İnkişaf Agentliyinin təşkilatçılığı ilə bir qrup media təmsilçisinin Ağdama növbəti səfəri reallaşdı. Budəfəki mediaturu əvvəlkilərindən fərqləndirən əsas nüans heyətin qəzet jurnalistlərindən ibarət olmasıydı. Ağdamda üzləşəcəyimiz mənzərənin məyusluğunu əvvəlcədən hiss etsək də, işğaldan azad edilmiş ərazilərə ilk dəfə səfər etməyin sevinc və qürurunu yaşayırdıq. Media İnkişaf Agentliyinin təmsilçisi Rüstəm Əbülfətoğlunun təbirincə desək, "müqəddəs Ramazan ayında ibadətə bərabər bir yolçuluğa çıxmışdıq". Məqsədimiz Ağdamla, daha doğrusu, şəhərin qalıqları ilə yaxından tanış olmaq idi.

Ağdamın Təzəkənd kəndində qurulan postu keçəndən sonra ilk dayanacağımız yolun kənarında təpənin üzərində məhv edilmiş düşmən postunun yanı oldu. Yolun sağ və sol hissəsində ANAMA-nın əməkdaşları torpağı qarış-qarış axtarır, bölgəni minalardan təmizləyirdilər. **Tur zamanı ANAMA-nın Ağdam regional üzrə əməliyyat meneceri Ehtiram Cəfərov yolun kənarına qoyulmuş plan-xəritə üzərində jurnalistlərə minalanmış ərazilərlə bağlı məlumatlar verdi.** Bildirdi ki, bu ərazilər potensial olaraq mina və partlamamış hərbi sursatlarla çirklənmiş ərazi hesab olunur. Ehtiram Cəfərovun sözlərinə görə, minaaxtaranlar tərəfindən Ağdamda ümumilikdə 3 milyon 600 min kvadrat metrdən çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Əməliyyatlar nəticəsində 146 ədəd tank əleyhinə və 189 ədəd piyada əleyhinə mina tapılıb: "Bundan başqa, Ağdam rayonu ərazisində 1251 ədəd partlamamış hərbi sursat aşkarlanıb. Əməliyyatlar rayonun içərisinə doğru davam edir. Bilirsiz ki, 10 noyabr sazişindən, yəni Ermənistanın kapitulyasiyaya imza atmasından sonra Ağdam rayonu savaşsız Azərbaycana təhvil verildi. Lakin rayon 30 ilə yaxın işğal altında olduğu üçün bu ərazilərdə həddindən çox minalar basdırılıb. Ona görə də müvəqqəti olaraq mülki insanların buraya girişi qadağan olunub. Hökumətin tapşırığına əsasən, ilk növbədə infrastrukturun olacağı bölgələr minalardan təmizlənir. Öncə Bərdə-Ağdam dəmiryol xəttini və avtomobil yolunu təmizləmək planlaşdırılıb. Regionda ANAMA-nın 32 əməliyyat heyəti çalışır. Yanvar ayından bu yana aşkarlanan bütün minalar zərərsizləşdirilib. Ən çətin proses hərbi mövqelərin təmizlənməsidir. Ona görə də bu ərazilərdə texnika ilə deyil, əllə təmizləmə mexanizmindən istifadə olunur. Təhlükəli minalar yerində, az təhlükəlisi isə münasib yerə aparılaraq orada zərərsizləşdirilir". E.Cəfərov mütəxəssis kimi ermənilərin "bizdə minalanmış ərazilərlə bağlı xəritəsi yoxdur" iddiasına da münasibət bildirib. Vurğulayıb ki, bu cür açıqlama tamamilə yalandır və absurddur: "Sxemsiz, plansız heç bir əraziyə minalar basdırılmır. Amma ermənilərə Ağdamdan çıxmaq üçün əlavə vaxt verilərkən qərəzli şəkildə hara gəldi mina basdıra bilərlər". Mütəxəssis bəyan edib ki, bölgədə əsas işi ANAMA görsə də, digər qurumlardan da yardım alırlar: "Milli Ordunun İstehkam Xidməti qoşunları, o cümlədən türk qardaşlarımızın göndərdiyi xüsusi heyət də bizə dəstək verirlər".

**E.Cəfərovun jurnalistləri bilgiləndirməsindən sonra heyətimiz vaxtilə Ağdam İcra Hakimiyyətində çalışan, hazırda YAP-ın Ağdam rayon təşkilatında aparat rəhbəri kimi fəaliyyət göstərən bələdçimiz - Zülfü Qasımova həvalə olundu.** Ağdamı qarış-qarış tanıyan Zülfü Qasımov marşrut boyu baş çəkdiyimiz hər yer haqqında ətraflı və maraqlı məlumat verdi. Ağsaqqal bələdçimizin geniş və bir qədər emosional izahatı Ağdamın qalıqları üzərində köhnə şəhəri gözümüzdə yenidən canlandırdı. Jurnalistlərlə tanış olan Z.Qasımovun ilk cümləsi "Ağdamı yenidən görəcəyimə heç inamım yox idi" oldu: "Şükürlər olsun ki, Allah xoşbəxt günləri bizə yenidən yaşatdı. Dövlət başçımıza, Ali Baş Komandana xüsusi minnətdarlıq edirəm. Məhz ölkə rəhbərinin, qəhrəman Ordumuzun rəşadəti sayəsində 30 ildən sonra doğma yurdumuza, boya-başa çatdığımız rayona qayıtmaq bizə nəsib oldu. Ağdama girmək üzrəyik. Yol boyu sağa-sola baxsaz, çox güclü müdafiə istehkamları görəcəksiz. Əgər müharibə yolu ilə Ağdama girilsəydi, şəhidlərimiz hədsiz çox olardı. Şükür ki, Prezidentimiz sayəsində Ağdamı döyüşsüz geri ala bildik".

Həqiqətən, yol boyu dəhşətli mənzərənin şahidi olduq. Avtobus hərəkət edərkən müəyyən məsafələrlə quraşdırılmış istehkamların, ardınca uçuq-sökük divarları qalmış, aralarını ot-alaq basmış yaşayış evlərinin, ictimai obyektlərin qalıqlarını izlədik. Ermənı vandalizminin "əsərlərini" yerində görmək bütün media nümayəndələrini dərindən sarsıtdı. Barbar ermənilər sadəcə günahsız insanlara deyil, cansız daşlara belə divan tutmuşdular. Şəhər yerləyeksan edilib, vəhşicə talanıb və 27 il bərbad vəziyyətdə saxlanılıb.

*Zülfü Qasımovun bələdçiliyi ilə yollandığımız ilk yerlərdən biri Ağdamdakı doğum binasının qalıqlarının qarşısı idi. Doğum evinin yanında uşaq poliklinikası da varmış:* "Ağdam şəhəri 50 küçədən ibarətdir. 5 kənd sahəsi və 2 məhəlləsi var. 81 nömrəli məhəllədə 640 ev tikilmişdi. O evlərin cəmi 18-i qeydə alınmışdı. Olduğumuz yerdə 11 beşmərtəbəli bina var idi. Yan tərəfdə 6 nömrəli məktəb və sərnişin avtobazası yerləşirdi. Digər tərəfdə isə iki mərtəbəli binalar tikilmişdi. Gördüyünüz bu kanalın içi suyla dolu olurdu, amma indi quruyub.

Sonrakı ziyarət məntəqəmiz Ağdamın məşhur "İmarət" deyilən yeri oldu. İmarət deyilən yerdə həm qəbiristanlıq, həm də məşhur stadion vardı. İmarət Qərvənd qəbiristanlığı Qarabağ xanının və onun yaxınlarının məzarları olan məqbərə-kompleksdir. Pənahəli xanın məqbərəsi də Ağdam rayonunda İmarət qəbiristanlığında yerləşir. Türbənin yanında ona oxşar başqa türbə də var. Bu türbə isə Pənahəli xanın oğlu, Qarabağ xanı İbrahimxəlil xana məxsusdur. Pənahəli xanın türbəsinin giriş qapısı tağvari quruluşa malikdir. Ermənilər içi samanla dolu olan türbədən mal-qaranın yem anbarı kimi istifadə ediblər. Türbələrin önündə xan qızı Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ağdam şəhəri işğaldan azad olunandan sonra məlum olub ki, ermənilər tərəfindən Natəvanın məqbərəsi dağıdılıb, qəbri təhqir olunub və sümükləri də çıxarılıb. Türbələrlə üzbəüz isə 1952-ci ildən 1993-cü ilə qədər fəaliyyət göstərmiş stadion vardı. Stadion işğal zamanı mərmi zərbələrinə məruz qalaraq, yararsız vəziyyətə düşüb. **Z.Qasımov tarixi oyunlara şahidlik etmiş stadionun yenidən bərpa olunacağını dedi:** "Buranın İmarət adlanmasının səbəbi burada Pənahəli xanın sarayının, imarətinin olmasıdır. Sarayda divanxana da olub. Abidə kompleksi XVIII əsrə aiddir. 1980-ci il may ayının 2-də Natəvan qızlar bayramı və Xarı bülbül ümumdünya festivalı keçirilirdi. Təsəvvür edirsiniz, 1989-1990-cı ildə Xarı Bülbül Festivalına Amerikadan, Türkiyədən, Meksikadan, Orta Asiya respublikalarından iştirakçılar gəlirdilər. Həmin festivalı Abdulla Qurbani hazırlayırdı. Bir tribunada 1000 nəfər eyni vaxtda xor oxuyurdu. 1500 nəfərə qədər stadionda oynayırdı. Festival çox gözəl olurdu". Xanın saray və divanxanası dağıdılmamış vəziyyətdə saxlansa da, hər iki tikili bərbad görünürdü. Sarayın otaqları və divanxananın içərisi zibil və peyinlə doluydu. Çox güman, ermənilər burada mal-qara, bəlkə də donuz saxlamışdılar. Növbəti dayanacağımız Ağdamın birinci Şəhidlər Xiyabanı, daha dəqiq desək, məzarlığın qalıqları idi. Sonradan üzə çıxarılmış üç-beş məzar istisna olmaqla ermənilər Xiyabanın altını üstünə çeviriblər. Əksər qəbirlər qazılmış, içi boş halda idi. Dəfn olunanların sür-sümükləri belə yoxa çıxmışdı. Sadəcə içərisi zirzibillə dolu çuxurlar qalmışdı. Bələdçimiz vurğuladı ki, Ağdamda şəhidlərin dəfn olunduğu üç qəbiristanlıq olub. Birinci, ikinci və bir də Qarahacı məzarlığı: "Bu məzarlıqda təxminən 1000-dən artıq şəhid basdırılmışdı. Görürsüz, sağ qəbir qalmayıb. Vəhşiliyin dərəcəsinə baxın. O vaxt Allahverdi Bağırovun Vitalik adında erməni ilə əlaqələri olub. Meyitləri, əsirləri, girovları dəyişdirirdilər. Onlar Qarabağ futbol komandasında bir yerdə oynamışdılar. Allahverdi Bağırov Vitaliklə bu əlaqələrdən istifadə edərək, o vaxt Xocalıda 1500-ə qədər əsir, girov və meyitləri dəyişdirə bilmişdi. O vaxt ermənilər Allahverdi Bağırovun qəbrini saxlamışdı. Sonra dağıtdılar. İndi qəbrin yerində qırıq daşları qalıb. O daşlara görə də müəyyənləşdiriblər ki, orda Allahverdi Bağırovun qəbri var".

Birinci Xiyabandan sonra Qarahacı deyilən məzarlıq yerinə yollandıq. Bələdçimiz İkinci Xiyabanın yerinin bilinmədiyini söylədi. Qarahacı məzarlığında isə demək olar ki, heç bir qəbir yeri qalmamışdı. Ermənilər Xocalı soyqırımında şəhid edilmiş insanların da dəfn edildiyi məzarlığı şumlayıb, bəzi yerlərini "əkib-becərmişdilər". Qarahacı qəbiristanlığından Əsgəranın erməni kəndləri açıq-aydın görünürdü. Düşmənlə aramızda isə Rusiya sülhməramlılarının nəzarət məntəqəsi qurulmuşdu. Məzarlıqdan sonra növbəti ziyarət bölgəmiz Ağdamın məşhur cümə məscidi oldu. Ağdam məscidi ermənilər tərəfindən işğal edildiyi dövrdə çox ciddi dağıntılara məruz qalıb. Məscid erməni işğalından bir ay sonra üzərinə benzin tökdürülərək yandırılıb. Minarələr daxildən tamamilə sökülüb, tavanı bir neçə yerdən uçurdulub. Daxili tərtibatı, dizayn və divar yazıları pozulub, hücrələri və yardımçı otaqları uçurdulub, tamamilə yararsız hala salınıb. Məscidin bəzək əşyaları qarət edilərək Ermənistana daşınıb. Divarlar üzərində erməni və rus dillərində Azərbaycan xalqına və millətinə qarşı alçaldıcı və təhqiredici ifadələr və sözlər yazılıb. Ermənilər məscidin ibadət zalında mal-qara və donuz saxlayıblar, məsciddən tövlə kimi istifadə ediblər. Allaha sonsuz şükürlər olsun ki, Ağdamla bərabər cümə məscidi də azadlığına qovuşdu, düşmənin təhqirlərindən xilas oldu.

Sonuncu dayanacağımız Qarabağ xanı Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilmiş məşhur Şahbulaq qalası idi. Bələdçimizin dediyinə görə, ehtimal ki, qalanın adı burada yerləşən gursulu bulağın adından - Şahbulağından götürülüb: "Şahbulaq qalası Qarabağ xanlığının ərazisində inşa etdirilən ikinci qaladır. Qala Bayat qalasından öncə Qarabağ xanlığına inzibati mərkəz kimi inşa edilib. İşğaldan azad olunanadək ermənilər qaladan kilsə, muzey və restoran kimi istifadə ediblər".

*Səfərimizin sonunda Zülfü Qasımov Ağdamın yeni baş planının hazırlandığını dedi. Bildirdi ki, əsas görkəmi və simvolları saxlanacaq: "Şəhərin salınması üçün hamısı təzədən qurulmalıdır. Şəhər müasir plan əsasında müasir qaydada olacaq. İnşallah, əvvəlkindən daha gözəl Ağdamımız olacaq". Səfərimiz Şahbulaqda başa çatdı və bir qədər dincəldikdən sonra Ağdamı yenidən, təbii ki, daha gözəl vəziyyətdə görmək arzusu ilə rayondan ayrıldıq.*

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Həqiqətdən qaçա bilmərik

## Hələ ki qorunmağın ən asan yolu maska taxmaqdır




Maskalar COVİD-19 virusunun yayılmasını müəyyən qədər dayandırmağa kömək edir. Qeyd edək ki, yoluxmanı azaltmaq üçün maska taxmaq təcrübəsi bəzi ölkələrdə uzun bir tarixə malikdir. Lakin bir çox ailələr üçün 2020-ci il maskanın ilk taxılması kimi yadda qalacaq. Artıq bir ildən çoxdur ki, insanlığı əsirinə çevirən COVİD-19-dan əsas qorunma yollarından birinin alimlər tərəfindən maska taxılması olduğu bildirilir. Bu hal dünyanın əksər ölkələrində hətta rəsmiləşdirilib. Bəs maska taxmaq "Covid-19"-dan qurtuluş yoludurmu?

**Tibb elmləri doktoru, professor Musa Qəniyev məsələyə aydınlıq gətirib. O, "Şərq"ə açıqlamasında vurğulayıb ki, qoruyucu maskalardan istifadənin tarixi bizim eradan əvvəl 6-cı əsrdən başlayır.** Ondan əvvəl isə insanlar tanınmamaq məqsədilə maskalardan istifadə edib: "Hazırkı tibbi maskaların sələfi hesab olunan "quş maskalarından" (quş dimdiyini xatırladan görünüşü vardı) 1345-1351-ci ildən Avropada 25 milyon insanın ölümünə səbəb olan "Qara Ölüm"- Vəba pandemiyası yayıldığı dövrdən istifadə olunmağa başladı. "Covid-19" pandemiya halını aldıqdan sonra maska taxmağa münasibətdə dünya iki qütbə ayrıldı. Bir sıra ölkələrdə insanlar maskadan mütləq şəkildə istifadə etməyə başladı *(məs. Cənubi Şərqi Asiya ölkələri)*. Bir sıra ölkələrdə isə buna son zamanlara qədər demək olar ki, əməl olunmurdu. Bir qrup Amerika və Tayvan alimlərinin "Science" jurnalında dərc olunan tədqiqatı göstərdi ki, digər viral infeksiyalardan fərqli olaraq "Covid-19" törədiciləri tək kataral vəziyyətdə olan xəstələrdən deyil, hətta xəstəliyi simptomsuz keçirən şəxslərin tənəffüs havasında 0,1 -1000 nonometrli hissəciklər şəklində ətraf mühitə verilə, eləcə də əşyaların üstünə çökərək, uzun müddət saxlanılmaqla, kontakt yolu ilə yoluxmaya səbəb ola bilər. Tənəffüs havası ilə rütubətləndirilən qapalı mühitdə isə onlar istər hava, istərsə də çökdüyü səthdə daha uzun müddət qaldığından, virusun virulentlik əmsalı və yoluxdurma potensialı qat-qat yüksək olur. Bu həqiqətdir".

M.Qəniyev əlavə edib ki, xüsusən açıq havada istənilən bir əşyanın, hətta taxılmış maskanın üzərinə düşmüş "Covid-19" virusu mürəkkəb struktur əsaslı olduğundan çox sürətlə parçalanaraq nuklein ardıcıllığını itirdiyi üçün yoluxduruculuq qabiliyyəti praktik olaraq sıfırlanır: "Bu halda hətta laborator müayinə həmin səthdə virusun olduğunu təsdiqləsə belə, bu artıq yoluxduruculuq qabiliyyətindən tam məhrum olan inaktiv ştamm və ya genom fraqmentidir. Yəni heç bir halda yoluxma törədəcək gücə və ya potensiala malik deyildir və malik ola da bilməz".

Tibb elmləri doktoru "Covid-19"-un hava-damcı üsulu ilə yoluxması haqqında da danışıb: "Bu haqda məlum alimlərin söylədikləri və gəldiyi qənaətdən çox da qorxub panikaya düşmək lazım deyil. Çünki ölçüsü yalnız 20 nonomikronda kiçik olan hissəciklər ağciyər və tənəffüs yollarına keçə bilir. 1 mlm tənəffüs havasında 1000 mkm hissəcik olsa belə, 20 nonomikrondan kiçik hissəciklərin faiz nisbəti, heç də həmişə yoluxmaya səbəb olan virus yükünü daşımağa imkan vermir. Ölçüsü 20 nonomikrondan böyük olan hissəciklər isə yalnız həzm traktına daxil olur və mədənin turş mühitində ani olaraq inaktivləşir. Hətta həmin şəxs axlorhidriyadan əziyyət çəkirsə belə, həzm traktında AÇF reseptorları olmadığından, bu halda "Covid-19"-a yoluxma haqqında düşünmək belə absurd bir şeydir. Digər tərəfdən, hətta günəş şüası olmadıqda belə, təmiz atmosfer havası çox yüksək antimikrob və antiviral təsirə malikdir və çox qısa müddətdə virusların genom strukturunu inaktivləşdirməklə, onların virulentlik əmsalını sıfırlayır. Odur ki, yalnız yaxın kontaktda, xüsusən, qapalı mühüt daxilində bu infeksiyadan qorunmanın əsas yollarından biri maska taxmaqdır".

**Professor maska taxmağın uşaqlara təsiri barədə də söhbət açıb:** "Birinci uşaqlıq yaş dövrü sona çatana qədər (6 yaş) bronx-ağ ciyər sistemi formalaşmadığına görə uşaqlara maska taxmaq qəti qadağandır. Bu hal faciəyə səbəb ola bilər. Yalnız zərurət yaranarsa (uşaq təhlükə gözlənilən qapalı mühitə girirsə), maska qısa müddətə 10-15 dəqiqə taxıla bilər. Yaxşı olar ki, maska taxmağa bu münasibət, uşaqlarda ağ ciyər-tənəffüs sistemi tam formalaşana qədər, yəni qız uşağının 11, oğlan uşağının isə 12 yaşı olana qədər əməl olunsun".

**Aynurə Pənahqızı**



## Nobel prospektinin adını dəyişdirmək məntiqli deyil

### Natiq Cəfərli: "Bundan istifadə etmək əvəzinə, nədən imtina edirik ki?"



**"44 günlük Vətən savaşının, qəhrəman əsgərimizin, zabitlərimizin şücaəti, şəhid və qazilərimizin qanı bahasına qazanılan hərbi qələbə, torpaqlarımızın böyük hissəsinin düşmən tapdağından azad edilməsi hekayəsi əbədiləşdirilməlidir".**

Bu sözləri ReAL partiyasının icraçı katibi Natiq Cəfərli deyib.

**N.Cəfərli narazı qaldığı məqamı "Şərq"lə bölüşdü:** "Amma atılan addımların da məntiqi olmalıdır - bu yaxınlarda tarixi zəfərimizin şərəfinə metro stansiyalarının birinə "8 Noyabr" adı verildi - doğru qərardır. Məncə, elə həmin metrostansiya ətrafında küçələrdən birinə də eyni adı vermək olardı. Bakının Nobel prospektinin adı dəyişdirildi, "8 Noyabr" adı verildi. Məncə, məntiqli yanaşma deyil. Nobel Qardaşları məmləkətimizin tarixidir, dünyada ən çox tanınmış soyadlardan biridir, bundan istifadə etmək əvəzinə, nədən imtina edirik ki? Dünyada ən populyar elmi mükafat "Nobel" adınadır. Günü bu gün də o mükafatın pulu Azərbaycan neftindən, burada qazanılan pulun faizindən verilir - bunu dünya bilirmi?! Bu barədə normal piar qura bilmişikmi?! Yox! Belə bir cəlbedici hekayə ermənilərdə olsaydı, çoxdan dünyaya səs salar, bu mövzunu dünyada ən populyar turistik marşrutlardan birinə çevirərdilər"...

**Kənan**

# Dərsliklərimizdə Vətən müharibəsinə geniş yer veriləcək

## *Azərbaycan gəncinin qəhrəman obrazına ehtiyacı var*

Qəbul imtahanında Vətən müharibəsi ilə bağlı suallar olacaq. Məlumdur ki, müstəqilliyimizin ilk illərində yaranan Qarabağ münaqişəsi bütün sahələrdə ölkəmizə təsir göstərdi. Məhz 1-ci Qarabağ münaqişəsindəki tarixi hadisələr orta ümumtəhsil məktəblərində şagirdlərə müəyyən qədər psixoloji zərbə vurdu.




Etiraf edək ki, həmin dövrlə bağlı hadisələri tarix kitablarından oxuyan şagirdlərimiz pessimist ruhda böyüyürdülər. Lakin 44 günlük Vətən müharibəmiz uzun illər ərzində yaranmış stereotipləri qırdı və Azərbaycan insanının mübariz və qəhrəman olduğunu sübut etdi.

**Tarix elmi üzrə fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasına bildirib ki, 44 günlük Zəfər mübarizəmizin tarixi hadisələri dərsliklərimizdə əks olunmalıdır:** "Şagirdlərimiz ruh yüksəkliyi ilə böyüməli, pessimist ruhdan kənarlaşmalıdırlar. Bu istiqamətdə orta ümumtəhsil məktəblərindəki dərsliklərdə Qarabağ tarixi ilə bağlı faktların qeyd olunması müsbət haldır.

Ümumiyyətlə, dərsliklərdə bir neçə istiqamətdə dəyişiklik gözlənilir.

İlk növbədə dizaynla bağlı dəyişiklik nəzərdə tutulur. Yəni Vətən müharibəsinin ən vacib hadisələri dərsliklərin üz qabığında qeyd olunacaq. Döyüş səhnələri, qəhrəmanlıq göstərən şəxslərlə bağlı fotolar dərsliklərdə əks etdiriləcək".

*K.Əsədov qeyd edib ki, dərsliklərimizdəki məzmunla bağlı da müəyyən dəyişikliklər nəzərdə tutulur:* "Daha çox nikbin, mübariz və qələbə ruhunda materiallar öz əksini tapacaq. Xüsusilə tarix dərsliklərində indiyə qədər işğal edilmiş ərazilərlə barədə yazırdıqsa, bundan sonra 44 günlük zəfərlə bağlı faktları yazacağıq.

Torpaqların işğaldan azad edilməsi, qəhrəmanlıq faktları qəbul imtahanlarına salınacaq. Qəbul imtahanlarında Vətən müharibəsindən mövzu kimi istifadə edilməsi şagirdlərimizin həmin mövzuya daha çox diqqət ayırmasına səbəb olacaq.

Bu da çox müsbət tendensiyadır. Azərbaycan gəncinin qəhrəman obrazına ehtiyacı var. Şagirdlərimizin vətənpərvərlik ruhunda böyüməsində tarix dərsliklərinin böyük rolu olacaq".

**Yeganə Bayramova**

# Özümüzü yandıran atəş...

Abşeron rayonu, Məmmədli kənd sakini, 13 yaşlı Nəbiyev Nihad Nicat oğlu odlu silahdan açılan atəş nəticəsində baş nahiyəsindən xəsarət alıb və aldığı xəsarətdən 15 aprel 2021-ci il tarixdə xəstəxanada vəfat edib. Hadisə ilə bağlı hazırda rayon prokurorluğunda istintaq tədbirləri davam edir.



Abşeron rayon prokurorluğunun məlumatında bildirilir ki, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla zərərçəkmişin həmkəndlisi, 1958-ci il təvəllüdlü Rzayev Sücəddin Abusət oğlunun özünə məxsus ov tüfəngi ilə kənd ərazisində sahibsiz itləri vurarkən ov tüfəngi ilə ehtiyatsız davranması nəticəsində açılan atəşdən Nihad Nəbiyevin baş nahiyəsindən xəsarət almasına və aldığı xəsarətdən ölməsinə əsaslı şübhələr yaranıb.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Sücəddin Rzayev Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində polis nəzarəti altınaalma qətimkan tədbiri seçilib.

Qeyd edilir ki, N.Nəbiyev qonşuluqda əkin üçün nəzərdə tutulmuş əraziyə keçib. Bu zaman qonşusu ona ehtiyatsızlıqdan ov tüfəngindən atəş açıb. Başından ağır xəsarət alan N.Nəbiyev xəstəxanaya yerləşdirilib. Lakin həkimlərin bütün səylərinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb. Atəş açmış S.Rzayevin sahibsiz itlərə güllə atdığı, lakin ehtiyatsızlıqdan Nihadı vurduğu deyilir. Təəccüblü olan həm də budur ki, bəzən yırtıcı heyvanların mal-qara sürülərinə hücum çəkdiyi, təsərrüfatlara ziyan vurduğu haqda məlumatlar yayılır. Kəndli, fermer silahı olmadığından təsərrüfatını müdafiə edə bilmədiyini söyləyir. Bəzən də evində odlu silah saxlayan başqa birisi ehtiyatsızlıqdan faciəyə səbəb olur. Deməli, silahla davranış qaydalarını bilməyənlər əllərinə silah almamalıdır. Bir də ki, sahibsiz itləri güllələmək sıradan bir vətəndaşın işi olmamalıdır, bizcə. Buna məsul xidmət sahəsinə məlumat verilməli və onlar həmin işi icra etməlidir.

## "Kimsə qeyri-qanuni silah saxlayırsa, bu, artıq cinayət tərkibli əməldir"

**Faciəli hadisə barədə fikirlərini "Şərq"ə bildirən ehtiyatda olan polis polkovniki Mahmud Hacıyev qeyd etdi ki, vətəndaşlara məxsus odlu silahlar mütləq daxili işlər orqanlarında qeydiyyata alınmalıdır:**

- Silahın alınması, saxlanması ilə bağlı konkret qaydalar var. Silahın saxlanmasına daxili işlər orqanları tərəfindən icazə verilməlidir. Bunun üçün xüsusi şöbə tərəfindən rəy yazılır. Bu rəy DİN tərəfindən narkoloji dispanser, psixi dispanserə göndərilən rəy əsasında tərtib edilir. Bu dispanserlər silah əldə etmək istəyən şəxs barəsində məlumat təqdim edir. Narkotik maddə asılılığı varmı, ruhi-əsəb sistemi zədəli deyilki və sair. Hər adama silah saxlamağa icazə verilmir. Bunun üçün əsas olmalıdır. Bu sorğuların cavabına uyğun olaraq da rəy verilir və vətəndaşın silahı DİN tərəfindən qeydiyyata alınır. Silahın saxlanmasına dair vətəndaşa şəhadətnamə təqdim olunur. Qayda belədir. Amma kimsə qeyri-qanuni silah saxlayırsa, bu, artıq cinayət tərkibli əməldir. Şübhəsiz ki, Abşeron rayonunda baş vermiş hadisə ilə bağlı da istintaq aparılacaq. Odlu silahdan atəş açmış şəxsin həmin silaha dair sənədinin olub-olmaması da yoxlanacaq. Sənədi varsa, başqa məsələ. Atəşin səhlənkarlıqdanmı, yaxud qəsdən açıldığı müəyyənləşəcək. Amma sənəd yoxdursa, bu, qeyri-qanuni silah saxlamaqdır. Və bunun özü ayrıca cənayət əməlidir.

**Məlahət Rzayeva**



# Müəllimlərlə bağlı yeni layihə hazırlanıb

## *İştirakçılar artıq rahatlıqla imtahana hazırlaşa biləcəklər*

Təhsil İnstitutu müəllimlərin işə qəbulu müsabiqəsinin qiymətləndirmə çərçivəsini müəyyən edən sənədlər toplusu hazırlayıb.

Təhsil Nazirliyindən verilən məlumata görə, sənədlər toplusu ümumi və tam orta təhsil müəssisələrində fəaliyyət göstərən və ya göstərmək istəyən mütəxəssislər üçün nəzərdə tutulub. Həmin sənədlər 19 fənni, ibtidai sinif, metodika və pedaqogikanı əhatə edən məlumat kitabçasında öz əksini tapıb. Məlumat kitabçasında hər fənn üzrə qiymətləndirmənin əsas məzmun sahələri və bu sahələr üzrə istifadə olunacaq tapşırıqların sayı göstərilib, iddiaçıların müsabiqəyə hazırlığına yardım etmək üçün müxtəlif fənlər üzrə əsas mövzular verilib. Bu, həm müsabiqə iştirakçılarını test tapşırıqlarının informasiya mənbəyi ilə tanış etmək, həm də onların fənnin tədrisi üçün zəruri olan nəzəri və praktiki bacarıqlarını yoxlamaq, mövcud dərsliklərdəki mövzuları bilmə, mənimsəmə səviyyəsini ölçmək məqsədini daşıyır.

**Mövzuya münasibət bildirən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, müəllimlərlə bağlı hazırlanan yeni layihə sayəsində iştirakçılar artıq rahatlıqla imtahana hazırlaşa biləcəklər.** Ekspertin sözlərinə görə, hazırlanan yeni layihənin bir çox üstünlükləri var: "Qeyd edim ki, 2013-2019-cu illərdə ixtisas bilikləri məntiqi, düşünmə təfəkkürü və kurikulumla yoxlanılırdı. Amma 2020-ci ildən etibarən bir sıra dəyişiklik edildi. Yalnız imtahan iştirakçılarının bilikləri, eyni zamanda kurikulum bilikləri yoxlanıldı. Bu ildən Təhsil Nazirliyi tamamilə prosesi şəffaflaşdırdı və öncədən ədəbiyyat siyahısında olan proqramları müəyyənləşdirdi. Belə ki, imtahan verəcək şəxslərə artıq Təhsil İnstitutu tərəfindən düşəcək suallar və mövzular tam açıq şəkildə verilib. Beləliklə, iştirakçılar imtahanlara artıq rahatlıqla hazırlaşa biləcəklər".

*K.Əsədov əlavə edib ki, burada sualların cavabları da, sualların hansı səpkidə seçilməsi də öz həllini tapıb:* "Həmçinin, imtahanda təqdim ediləcək sualların sayı, mövzular arasında bölünməsi və ağırlıq səviyyəsi də tam öz əksini tapıb. Burada milli qiymətləndirmədə test tapşırıqlarının ağırlıq səviyyəsinə görə bərabər səviyyədə qiymətləndirmə prinsipi əsas götürülür. Məhz bu gün Təhsil İnstitutu tərəfindən təqdim edilən yenilik proqramların, yəni hansı mövzuda test tapşırıqları təqdim ediləcək və tam şəkildə onların açıqlamasından ibarətdir".

**Aynurə Pənahqızı**

# Quş əti və damazlıq yumurta idxalı müvəqqəti dayandırıldı

## *"Qadağa qoyulmazdan əvvəl ölkə ərazisində bu məhsullara olan tələbatın alternativ təminat yolları planlaşdırılmalıdır"*



Almaniya, Çexiya və İsveç şəhərindən gələn bütün növ diri quş, quş əti və damazlıq yumurtanın idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub. Bu barədə Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatına əsasən, məhdudiyyətə səbəb adı çəkilən inzibati ərazi vahidlərində yüksək patogen quş qripi xəstəliyinin qeydə alınması olub.

Nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə Almaniya Federativ Respublikasından, Çexiya Respublikasından və İsveç Krallığından gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

Koronavirusun tüğyan etdiyi bir vaxtda quş qripi təhlükəsi əlbəttə bizi narahat edir. Bu baxımdan insan sağlamlığını təhlükəli duruma salan bütün əngəllərin aradan qaldırılması vacibdir. Məhz aidiyyəti qurumların məsələyə ciddi yanaşması lazımdır.

**Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyevin "Şərq"ə açıqlamasına görə, vətəndaşların sağlamlığının qorunması və bir sıra xəstəliyin yayılmasının qarşısını almaq üçün atılan addımlar olduqca təqdirəlayiqdir:** "Hətta buna gecikmiş addım da deyərdim. Bu cür təhlükəli məqamları öncədən planlaşdırmaq lazımdır. Amma bir məsələ diqqətdə saxlanılmalıdır: Müvafiq qadağaları tətbiq edirik, bəs ölkə əhalisi hansısa qida məhsulu ilə qidalanmalıdır, yoxsa bu məhsullardan kənarda yaşamalıdır? Təbii ki, yox. Məhz buna görə də qadağa qoyulmazdan əvvəl ölkə ərazisində bu məhsullara olan tələbatın alternativ təminat yolları planlaşdırılmalıdır.

Bu, iki yolla həyata keçirilə bilər: birincisi, ölkə ərazisində quş əti istehsalı ilə məşğul olan müəssisələrin istehsal gücünün artırılması. İkincisi, quş əti xammalı ilə təminatlandırılmada digər alternativ ölkələrlə müqavilələrin bağlanılması. Təbii ki, mövcud halın qarşısını almaq üçün bu iki amilin həyata keçirilməsi birmənalı olaraq vacibdir. AQTA-nın mövqeyini alqışlayır və bəyənirəm. Görülən tədbirlər vətəndaşların sağlamlığının qorunması baxımından həyata keçirilməsi vacib sayılan işlərdir".

**Yeganə Bayramova**

# Sənətçilər niyə narkotikaya qurşanırlar?



## Musiqiçilərin müzakirəsində fikirlər haçalandı

ARB TV-nin "Həmin Zaur" verilişində müğənni Emil Rəhmanoğlunun və digər bir neçə sənətçinin narkotik aludəçiliyindən danışılıb. Proqramın qonaqları müğənni Cavanşir Məmmədov, E.Rəhmanoğlu və xanımı Sabrina olub.

”Şərq”in məlumatına görə, C.Məmmədov narkotik aludəçiliyi haqqında danışaraq mərhum klarnet ifaçısı Zahid Sabirabadlının onun bu bəladan qurtara bilmədiyi iki insandan biri olduğunu söyləyib: ”Zahid rəhmətə gedəndə Hüseyn Məhəmmədoğlu hönkürüb ağlayırdı. İnsanın ürəyi yanır. Çünki elə sənətkarlar 100 ildən bir dünyaya gəlir. Zahiddən və bir nəfərdən başqa bütün dostlarımı narkotikdən uzaqlaşdıra bildim. Elə dostum olub ki, iplə ayağını ayağıma bağlamışam ki, getməsin”.

Bu zaman verilişin musiqiçisi olan H.Məhəmmədoğlu dillənərək fikirlərini söyləyib: ”İnsanın öz ağlı olmalıdı. Məsələn, mən və qardaşım atasız böyümüşük, anam da yataq xəstəsi olub. Biz kombinatda boya-başa çatmışıq. Bu günə qədər nə siqaret çəkmişəm, nə də içki içmişəm. Hər şey insanın özündən asılıdır. Deyirlər, filankəsi pis yola çəkiblər. Məni niyə pis yola çəkə bilmirlər? İnsanın öz ağlı, şüuru olmalıdır. Bilməlidir ki, bu zərərlidir, olmaz”.

C.Məmmədov isə deyib ki, narkotikə aludə olmağın tibdə izahı var. Qanda meyillənmə olur: ”Misal üçün, gitara ifaçısı Rəmiş. O da aludəçi idi. Bütün Azərbaycan Rəmişin üstündə əsib. Onu sevməyənlərlə az-az rastlaşmaq olar. Hamı çalışırdı ki, Rəmiş narkotikdən uzaqlaşsın. O da son illərdə, təxminən 10 il qabaq tərgitdi”.

Sabrina xanım isə Emil Rəhmanoğlunun bu günə qədər yaşamağının göydə Allahın, yerdə də özünün sayəsində olduğunu bildirib.

**Samirə Ərəblinski**



## Röya ərini təriflədi

“Nə yaxşı uşağımın atası belə bir adamdır”

**Müğənni Röya Ayxan ”Günün sədası” verilişində qonaq olub.**

Proqramda onun keçmiş illəri, evli olduğu zamanlarla bağlı süjet yayımlanıb.

**”Şərq” xəbər verir ki, keçmiş həyat yoldaşı Anar Cəlilovla fotolarını görən Röya bunları söyləyib:** ”Ona baxdım, dedim, nə yaraşıqlı oğlana ərə getmişəm. Bu süjet məni gözəl günlərə apardı. Fikirləşdim ki, nə yaxşı uşağımın atası belə bir adamdır. Doğrudan da dünyaya uşaq gətirərsənsə, elə ondan gətirərsən”.

**Samirə**

## “Bir dəfə efirdə deməmişəm"

Səməd Səmədov: ”30 ildir Ramanada əlillər evinə yardım edirəm”



"Əksər müğənnilər əlillər evinin yerini bilmir"

**Müğənni Səməd Səmədov ”Baku TV”-yə müsahibəsində pandemiya dövründən gileylənib.**

**”Şərq” xəbər verir ki, toyların yoxluğu ilə yaranan maddi problemlərindən söz açıb:** ”Vəziyyət hədsiz dərəcədə faciəvidir. Musiqiçilər zəng edir ki, Səməd müəllim, bu pandemiya dövrü nə vaxt sona çatacaq? Toy yoxdur, ”zapas” qurtarır. Həyat yoldaşımla bir il bağdan çıxmadıq. Nə qonaq qarşıladıq, nə də qonaq getdik. Övladlarım Rusiyada yaşayırlar. Onlarla internet vasitəsilə danışırdıq.

Qonşu ölkədən toylara dəvət gəlir. Amma uşaqlarım icazə vermirlər. Deyirlər ki, ata, gəlmə. Ümumiyyətlə, başqa bir ölkədə yaşamağı heç düşünməmişəm. Keçmişdə İsrailə getmişdim. Yəhudi qardaşlarımız önümə bir çemodan pul qoydular. Dedilər, Səməd, getmə. Bakıda da düşünürdülər ki, Səməd gəlməyəcək, lakin qayıtdım”.

Sənətçi, həmçinin müharibə dövründə hansısa bir yardım etmədiyini söyləyib: ”Lakin illərdir ehtiyacı olanlara köməklik göstərirəm. Məsələn, əksər müğənnilər əlillər evinin yerini bilmir. Ramanada yerləşir və 25-30 ildir ora yardım göstərirdim. Amma bir dəfə efirdə deməmişəm. Etdiyimiz yardımı Allahdan başqa kimsə bilməməlidir”.

**Samirə Ərəblinski**

# “Moskvadan qayıdanda onlara cavab verəcəm”

*Aşıq Mübariz: “Mən saza hörmətsizlik etməmişəm. Oturduğum yerdə saz çalmışam”*



Aşıq Mübariz Camaloğlunun Rusiyadakı toyların birində çəkilən videosu müzakirə doğurub. Onu saz çalarkən bir nəfərin qucağına alması tənqid edilib. İstər sosial şəbəkə istifadəçiləri, istərsə də şou əhli M.Camaloğluna irad bildiriblər. Aparıcı Mətanət Əliverdiyeva da məlum görüntülərə sərt reaksiya verərək "Bilmədim, toya baxırdım, yoxsa sirkə" deyib.

**Biz də bütün bu iradlara cavab almaq üçün Mübariz Camaloğlunun özü ilə əlaqə saxladıq. O, ”Şərq”ə bunları söylədi:** ”Həmin proqrama baxdım, Aşıq Əli də qonaq idi. Mətanət xanımın nömrəsi məndə olmadığı üçün onunla əlaqə saxlaya bilmədim. Amma Əliyə zəng elədim. Dedim ki, orada Mübarizin insanlığını, yaxşı sənətinin olduğunu deyə bilmirdin? Sazın adı gələndə birinci mən yada düşürəm. Dedim ki, qardaş, hərənin özünə görə sənəti və şəxsiyyəti var. Mən nə isə edəndə qabaqcadan fikirləşirəm. O pəhləvan Azərbaycan bayrağını bütün dünyaya, Rusiyaya tanıdan Nurəddin Beyləqanlıdır. Mənimlə məsləhət elədi. Söylədi ki, qərib yerdəyik, insanlar şou görmək istəyir. Sən də tanınmış oğlansan, mən də, belə bir şey edək. Dedi ki, stulda oturub saz çalacaqsan, mən də səni dişimdə qaldıracam. Bu nə böyük qəbahətdir ki, qaldırıb qoyublar dağın başına? Mətanət xanıma deyə bilmirsiniz ki, pəhləvan öz gücünü göstərib? Nə olub ki, Mətanət xanım arxamca danışır, saytlar məndən yazır. Mən saza hörmətsizlik etməmişəm. Oturduğum yerdə saz çalmışam. Mənə irad bildirənlərə Moskvadan qayıdanda cavab verəcəm. Başqa artıq-əskik hərəkətim olmayıb”.

“O pəhləvan Azərbaycan bayrağını bütün dünyaya, Rusiyaya tanıdan Nurəddin Beyləqanlıdır. Mənimlə məsləhət elədi. Söylədi ki, qərib yerdəyik, insanlar şou görmək istəyir. Sən də tanınmış oğlansan, mən də, belə bir şey edək"

**Samirə Ərəblinski**



## Hər həftənin beşinci günü efirdə olacaq

İzzət Bağırov aparıcı kimi də özünü sınayacaq

**Müğənni İzzət Bağırov aparıcı kimi çalışmağa başlayıb.**

”Şərq” xəbər verir ki, onun ”İzzət şou” adlı proqramı ”MTV Azərbaycan”da yayımlanacaq. Bu barədə sənətçinin özü məlumat yayıb. İnstaqramda verilişin çəklişindən görüntüləri paylaşan İ.Bağırov ilk qonaqlarının Fərda Xudaverdiyev və Röya Ayxan olduğunu söyləyib. Həmçinin hər həftənin beşinci günü efirdə olacağını bildirib.

**Samirə**

# Koronavirus vətəndaşla hökuməti üz-üzə qoyur

*"Metronu açmaq daha yaxşı olar. Bir şərtlə ki, sərnişinlərin hərarəti yoxlanılsın, karantin qaydalarına birmənalı əməl edilsin"*



Son həftələr vətəndaşları ən çox narahat edən məsələlərdən biri şənbə, bazar günləri ictimai nəqliyyatın işləməməsidir.

Çünki insanlar bir az istirahət etmək, necə deyərlər, havalarını dəyişmək, monotonluqdan uzaqlaşmaq üçün gərgin iş həftəsinin sonunu gözləyirlər. Amma məşhur atalar misalında olduğu kimi, sən saydığını say, gör, fələk nə sayır...Yeqin ki, hazırkı situasiyada fələk rolunu məşhur Operativ Qərargah oynayır. O Operativ Qərargah ki, artıq bir ildən artıqdır digər dünya ölkələri kimi, Azərbaycanın da üzərini qara bulud kimi alan, bizi, az qala, canımızdan bezdirən, daim səksəkədə saxlayan koronavirus pandemiyasından yaxa qurtarmaq üçün çalışır. Həftə sonları ictimai nəqliyyatın hərəkətinə qadağa qoyulması da həmin qurumun qəbul etdiyi qərarlardandır. Yenə də atalar misalı ilə desək, "aşağı baxsaq saqqal, yuxarı baxsaq bığ..."

**Millət vəkili Razi Nurullayev şənbə, bazar günləri ictimai nəqliyyatın işləməməsinə dair fikirlərini "Şərq"lə bölüşdü:** "Əlbəttə, vətəndaşların rahatlığı naminə bu qadağanı doğru hesab etmirəm. Lakin yoluxanların sayı artdıqca Operativ Qərargahın məsuliyyəti də artır. Sabah daha təhlükəli vəziyyət yaransa, hər birimiz həmin qurumu ittiham edəcəyik. Koronavirusun üzü qara olsun, vətəndaşla hökuməti üz-üzə qoydu. Sözsüz ki, mən vətəndaşın yanındayam, lakin dediyim kimi, yoluxma statistikasını da nəzərə almaq lazımdır. Hər gün mənə vətəndaşlardan onlarca zəng gəlir. Karantin qaydalarının daha da sərtləşdirilməsinin labüdlüyündən danışırlar. Çünki özləri, əzizləri virusun qurbanına çevrilirlər".

**Deputat, həmçinin alternativ variantdan da danışdı:** "Təbii ki, nə tramvay var, nə trolleybus. Uçan taksidən istifadə etmək də real deyil. Fikrimcə, metronu açmaq daha yaxşı olar. Bir şərtlə ki, sərnişinlərin hərarəti yoxlanılsın, karantin qaydalarına birmənalı əməl edilsin. Başa düşürəm, həftə sonları şəhərə getmək istəyənlər var. Nə qədər etsək də, avtobuslar həmin axını idarə edə bilməz".

**Kənan**

## Mehmet Ali Ərbil pulsuzluqdan əziyyət çəkir

"Əmlaklarım var, amma pandemiya səbəbi ilə onlara kirayəçi gəlmir"



**Məşhur şoumen Mehmet Ali Ərbil 2 ildir səhhəti ilə bağlı yaşadığı problemlərə görə işləyə bilmədiyini açıqlayıb.**

**Şoumen maddi sıxıntı çəkdiyini deyib:**

"Çox böyük zərərim var. Əmlaklarım var, amma pandemiya səbəbi ilə onlara kirayəçi gəlmir".

*Qeyd edək ki, Mehmet Ali Erbil şoumen qaçış sindromundan əziyyət çəkirdi. O, yeni mövsümdə verilişlərin birində aparıcılıq edəcək.*

## Model dələduzların qurbanı oldu



**Playboy modeli 25 yaşlı bloger Sabrina Nikol dələduzların qurbanına çevrilib.**

Model Vice-yə müsahibəsində bildirib ki, dələduzlar aktiv şəkildə onun fotolarından istifadəçiləri aldatmaq üçün sosial şəbəkədə yararlanırlar. Dələduzluğun miqyası barədə danışan bloger model mütəmadi olaraq tanımadığı adamlardan pulların geri qaytarmaq məlumatları aldığını bildirib. Bəlli olub ki, onun fotolarından şəbəkədə müxtəlif adlarda istifadə edirlər.

**Elan**

Tovuz Rayon Polis şöbəsi tərəfindən Abdullayev Mehman İlyas oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Zöhrə Abdullayeva evə buraxılıb



**Əməkdar artist Zöhrə Abdullayeva xəstəxanadan evə buraxılıb.**

Axşam.az xəbər verir ki, müğənni uzun müddətdir revmatizmadan əziyyət çəkir. Səhhəti daha da ağırlaşan Abdullayeva xəstəxanaya yerləşdirilmişdi. O, müalicəsini artıq evində davam etdirir.

*Qeyd edək ki, Z.Abdullayevanın ayaqları tutulmuşdu. Xəstəliyi ağırlaşan müğənni yeriməkdə çətinlik çəkirdi. O, 30 kiloqram arıqlayıb.*

## Koronavirusa yoluxublar

Xatirə İslam və həyat yoldaşı xəstəxanaya yerləşdirilib



**Müğənni Xatirə İslam koronavirusa yoluxub.**

Lent.az xəbər verir ki, vəziyyəti ağırlaşan ifaçı gecə saatlarında təcili Bakı Sağlamlıq Mərkəzinə yerləşdirilib.

Xəstəxanadan bildirilib ki, Xatirə İslam hazırda nəzarət altındadır.

*X.İslamın həyat yoldaşı Fəxrəddin də virusa yoluxub və hazırda xəstəxanadadır.*

# Bu uşaqlar insult keçirə, iflic ola bilərlər



*Tədqiqatı nəticələrini "The Lancet" nəşri dərc edib*

Beynəlxalq tibb ekspertlərinin icmalı göstərir ki, koronavirusa yoluxmuş uşaqlarda insulta qədər beyin zədələnməsi yarana bilər. Bundan başqa, xəstəlikdən əsəb hüceyrələri və onurğa da ziyan çəkə bilər.

Alimlərin tədqiqatının nəticələrini "The Lancet" nəşri dərc edib. Tədqiqatda 38 uşaq iştirak edib, alimlər MRT-nin (Maqnit Rezonans Tomoqrafiya) köməyi ilə virusun mərkəzi sinir sisteminə mənfi təsirini müəyyən edə biliblər.

Xəstələrin bir çoxunda onurğa, sinir köklərinin anormal gərginliyi qeydə alınıb. Bu, yalnız MRT-də görünüb. Bəzi uşaqlarda nadir hallarda ifliclə nəticələnən onurğa beyni iltihabı əmələ gəlib.

Tədqiq olunmuş 38 uşaqdan 4-ü bir müddət sonra koronavirusdan ölüb. Daha 4 uşaqda tromb - işemiya xəstəliyi, 1 uşaqda isə beyinə çoxsaylı qanaxma ilə nəticələnən insult inkişaf edib.

*Qeyd edilir ki, koronavirusdan sonra gənc xəstələrdə qıcolmalar, şüurun depressiyası, serebrovaskülit (beyin damarlarının iltihabı), ensefalit inkişaf edə bilər. (publika.az)*

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəyman Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073
Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 680

# Maska taxmaq istəməyən adam polisə hücum etdi



**ABŞ-da yaşayan 61 yaşlı kişi maska taxmamaq üçün polisə müqavimət göstərib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə Minnesota ştatında baş verib. 61 yaşlı kişi maska taxmamaq üçün polisə hücum edib. O, çəkiclə polis məmurunu vurub, sonra isə qaçmağa çalışıb. Kişi birinci dərəcəli təcavüzə görə tutulduqdan sonra həbsxanaya göndərilib.

**Yeganə**

# 50 ildə 3 min mahnı kaseti yığdı

## Orhan Doğanın bu sevdası hələ də davam edir



**Yalovada yaşayan 60 yaşlı Orhan Doğan 50 ildə 3 min kaset yığıb. O.Doğanın illər əvvəl başlayan kaset sevdası hələ də davam edir.**

"Şərq" "ntv.com.tr"yə istinadən bildirir ki, O.Doğan evində topladığı kasetlərə çox diqqətlə baxır və onları daim təmizləyərək ilk günkü kimi qorumağı bacarır.

Xüsusilə İbrahim Tatlısəs, Ferdi Tayfur və Müslüm Gürses kimi sənətçilərin bütün albomlarını qoruyan Doğan, musiqi kasetlərinə olan bu marağının 50 ildir davam etdiyini söyləyir: "İndiyə qədər fərqli sənətkarlara aid 3 mindən çox kaset almışam. Onların əksəriyyəti ilə unudulmaz xatirələrim var. Bəzən hansısa albom çıxdığı zaman pulumu verdim, albomu alıb, evə piyada qayıtdım. Bu illər ərzində ruhum nə vaxt daralsa, musiqi ruhuma böyük qida və enerji verdi".

**Yeganə**

# Pişik hünərinə görə polis rəisi olub

## Bir il əvvəl onun köməyi nəticəsində yaşlı kişi xilas edilib



**Yaponiyanın Toyama prefekturasında pişik bir günlük yerli polis şöbəsinin rəisi vəzifəsinə təyin edilib.**

Azərtac bildirir ki, Koko adlı pişiyin bu vəzifəyə təyin olunması heç də elə-belə baş verməyib. Bir il əvvəl onun köməyi nəticəsində yaşlı kişi xilas edilib. Həmin kişi su axınına düşüb. Qocaya kömək etmək üçün Koko suyun kənarında oturaraq fasiləsiz şəkildə gözlərini ora dikib və bu, onun sahibəsinin diqqətini cəlb edib. Sahibənin yardıma çağırdığı insanlar qocanı xilas ediblər. Bu şəxsi xilas etməyə kömək göstərdiyinə görə Koko hüquq-mühafizə orqanları tərəfindən fəxri fərmanla mükafatlandırılıb. Onun üçün xüsusi polis forması tikilib və balaca papaq düzəldilib. Koko cəmi bir gün polis rəisi vəzifəsini icra edib.

# Hazal Kaya"şok"olub

## O, artan yoluxma sayına görə heç bir xəstəxanada yer tapa bilməyib



**Koronavirusdan sağalan tanınmış aktrisa Hazal Kaya xəstəxanada "şok"olub.**

Virusdan sağalan aktrisa təzyiq problemi yaşadıqdan sonra xəstəxanaya müraciət edib. Amma artan yoluxma sayına görə heç bir xəstəxanada yer tapa bilməyib.

Aktrisa yaşadığı çətinlikləri sosial mediadan izləyiciləri ilə paylaşıb. /medicina.az




# Ronaldo, Neymar və Salahı Qarabağa çağırdılar

## Uşaqlar ulduzlardan cavab gözləyirlər




**Ağdamın "Qarabağ" klubunun uşaqlardan ibarət komandasının üzvləri dünya futbol ulduzları Kriştian Ronaldo, Neymar və Mohamməd Salahı Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarında oynamağa dəvət ediblər.**

Uşaqlardan ibarət U-11 komandasının kapitanı Uğur Qurbanlı və U-10 oyunçusu Raul Hüseynlinin iştirakı ilə çəkilmiş videoçarxda yeniyetmələr öz kumirlərini - Ronaldo (Yuventus), Neymar (PSJ) və Salahı (Liverpul) əslən olduqları Ağdam və Füzuliyə dəvət etmələri əks olunur. Həmin çarx Mediaturk YouTube kanalında yayımlanıb. Hər iki yeniyetmə səbirsizliklə dünya ulduzlarından cavab gözlədiklərini bildirib.

*Qeyd edək ki, Ağdamın "Qarabağ" klubu öz uşaq futbolu akademiyasına oyunçular seçməkdə davam edir. Hazırda 2009-2011-ci il təvəllüdlü uşaqların seçimi elan olunub. Seçim Bakıda, Tofiq Bəhramov adına respublika stadionunda keçiriləcək. Seçimdə iştirak etmək istəyənlər klubun rəsmi saytı vasitəsilə ərizə ilə müraciət etməlidirlər.*

# Xüsusi qruplar yaradılır

## Ev-ev gəzərək peyvənd olunmayanları razı salacaq



**Peyvənddən imtina edənlərə qarşı yeni üsul düşünülüb. Xüsusi "peyvənd qrupları" yaradılır.**

Onlara ev-ev gəzərək peyvənd olunmayanları razı salmaq vəzifəsi tapşırılır. Bu barədə Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca açıqlama verib. Nazir bildirib ki, vətəndaşları vaksin vurdurmağa razı salmaq üçün evlərə göndəriləcək xüsusi həkim briqadaları yaradılacaq. "40 yaşdan yuxarı vətəndaşlarımıza iyun ayının sonunadək peyvənd vurulmasını başa çatdırmağı düşünürük. Yoluxma və ölüm sayının azaldılması məqsədilə həyata keçirdiyimiz tədbirlər təsirli olmazsa, Ramazandan sonra daha sərt tədbirlər görüləcək". Nazir vətəndaşları "yola gətirmə" heyətlərinin ailə həkimləri ilə birlikdə evlərə gedəcəyini və peyvəndin üstünlüklərini anladacaqlarını deyib. "Peyvənd vurdurmayanlardan bunun səbəbi soruşulacaq. Kiminsə çəkinəcək tərəfi varsa, o da izah ediləcək, doğru qərar verilməsi təmin ediləcək" deyən F.Qoca bu yolla cəmiyyətdə peyvəndlənmə faizinin artırılmasını hədəfə aldıqlarını söyləyib.

*Nazir görülən tədbirlərin nəticəsi olaraq iyun ayında yoluxma və ölüm sayının azalacağını gözlədiklərini də deyib.*

**Məlahət**



# Aktyor həmkarı ilə sevgilidir

## Cütlük münasibətlərini gözlərdən uzaq yaşayır

**Aktyor Onur Tunanın gizli eşq yaşadığı xanımın kimliyi məlum olub.**

Aktyor həmkarı Elif Doğanla sevgilidir. Cütlük sevgi münasibətlərini gözlərdən uzaq yaşayır. Onları "Yasak elma" serialındakı aktrisa Sevda Erginci tanış edib.

*Qeyd edək ki, Onur Tuna hazırda "Mucize doktor" serialında Ferman obrazına həyat verir.*